21 fevral 2020-ci il
№07 (8871)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**Təhsil Nazirliyi və Baş Prokurorluğun birgə məlumatı**
⇨səh.3

**Məktəblini, müəllimi DOST bilənlər**
⇨səh.4

**Fövqəladə hallarla bağlı maarifləndirmə**
⇨səh.7

**"Özünü STEAM-da tap"**
⇨səh.8

# Ana dilim - dövlət dilim

## Dilimizi qorumaq hər bir azərbaycanlının müqəddəs borcudur




Ta qədimdən insan sözünü deməyin bir yolunu tapıb. Göstərib, işarə verib, şəklini çəkib. Sonra işarələrlə söz düzəldib, sözləri yan-yana qoyub cümlə qurub. Elə ki, öz aralarında ünsiyyət formasını tapıb, inkişafı daha da sürətlənib. Çünki eşitdiyini və gördüyünü deməyin, öyrəndiklərini öyrətməyin, qazandıqlarını - maddi və mənəvi irsini qorumağın, onu inkişaf etdirməyin bir yolunu tapıb. Həmin yol - ən mühüm və ən güclü vasitə məhz dildir. 2000-ci ildən bəri hər il fevralın 21-i dünyada öz sözü, öz imzası olan bütün xalqlar imzasını atdığı dil üçün səfərbər olur, həmin günü Beynəlxalq Ana Dili Günü kimi qeyd edirlər. Hər xalqın dilinin yaranması və formalaşması, dövlət dili statusu qazanması fərqli dövrlərə təsadüf etsə də, bu günün tarixi UNESCO-nun 1999-cu ildə çıxartdığı qərara əsaslanır. Banqladeş səfirinin təşəbbüsü ilə verilən bu qərarın əsasında isə 1952-ci ildə Banqladeşin Benqal şəhərində baş verən bir hadisə dayanır. Belə ki, həmin il fevralın 21-də öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbə öldürülür. O gün bu gündür, bu tarix Benqal hadisəsini insanların xatirəsində canlandırır, dilinin həm də dövlət dili olmasının nə qədər dəyərli olduğunu millətlərə xatırladır.

⇨Ardı səh.3

# "Hədəfimiz Azərbaycan elmini rəqabətqabiliyyətli etməkdir"

Müasir reallıqlar şəraitində hər bir ölkənin iqtisadi inkişaf templəri, rəqabətqabiliyyətliliyini ölçən ən mühüm parametrlərdən biri də elm və təhsilin inkişafından, elmi məhsulların kommersiyalaşdırılması intensivliyindən, dünya təhsil sistemində milli universitetlərin tutduğu yerdən birbaşa asılıdır.

Milli universitetlərin dünya reytinqlərində mövqeyini şərtləndirən mühüm amillərdən biri universitet alimlərinin elmi-tədqiqat məhsulları və onların dünyanın nüfuzlu indeksli jurnallarda yer tutması ilə bağlıdır.

Universitetlərin dünyada nüfuzu həm də alimlərimizin elmi məhsullarının dünya miqyasında tanınması və onlara edilən istinadların sayı ilə də ölçülür.

Təhsil Nazirliyinin 2014-cü ildə Thomson Reuters (indiki Clarivate Analytics) elmi bazası ilə səmərəli əməkdaşlığının nəticəsi olaraq ötən illər ərzində ali məktəblərimizin elmi publikasiya aktivliyi yüksələn xətlə inkişaf etmiş, Azərbaycan regionda lider mövqeyə çıxmışdır. Fevralın 3-də isə Təhsil Nazirliyinin dünyanın ən böyük elmi-analitik bazası olan Niderlandın Elsevier korporasiyası ilə Niyyət Protokolu imzalaması bir daha alim və tədqiqatçılarımızın əldə olunan uğurlarının davamlı inkişafının təmin ediləcəyinə böyük ümidlər verir. Elsevier-in Mərkəzi Asiya və Azərbaycan üzrə regional direktoru Aliyə Ospanova da "Azərbaycan müəllimi" qəzetinə verdiyi müsahibəsində bu sahədə əminliklə danışır.

**"Azərbaycan alimlərinin rəqabət qabiliyyətini artırmağı planlaşdırırıq"**

*- Təhsil Nazirliyi ilə Niderlandın aparıcı elmi-analitik şirkəti Elsevier arasında Niyyət Protokolu imzalanıb. Deyə bilərsinizmi, sənəd hansı məqsədləri nəzərdə tutur?*

- Əlbəttə. Niyyət Protokolu dünyanın ən böyük elmi şirkəti ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında mühüm strateji əlaqələrin yaradılmasının əsasını qoyur. Bu sənəd Azərbaycanın ali təhsil müəssisələrinin ScienceDirect və Scopus-a çıxışını təmin etməklə ölkə universitetlərinin elmi potensialının inkişafına sərmayə qoymağı, habelə ali məktəblərin beynəlxalq QS ( World University Rankings), THE ( Times Higher Education) reytinqlərinə daxil olmasına dəstək verir.

⇨Ardı səh.5

## Koreya və Latviyada təhsil imkanı

Koreya Respublikası 2020-2021-ci tədris ili üzrə təqaüd proqramı elan edir. Təqaüd proqramı bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə elan olunub. Proqramda iştirak etmək istəyənlər üçün son müraciət tarixi 13 mart 2020-ci il nəzərdə tutulub.

***

Latviya Respublikası Hökuməti 2020-2021-ci tədris ili üzrə Azərbaycan vətəndaşları üçün bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə təqaüd proqramı elan edib.

Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar üçün son müraciət tarixi aprelin 1-dir. Namizədlərin müraciətləri araşdırıldıqdan sonra yekun qərar Latviya Dövlət Təhsil İnkişaf Agentliyi (DTİA) tərəfindən veriləcək.

Təqaüd proqramları çərçivəsində təhsilə dair ətraflı məlumatlarla elan vasitəsilə tanış ola bilərsiniz.

# İnklüziv təhsil onların həyatını dəyişir

## Sağlamlıq imkanları məhdud olan şəxslərin arzularla dolu böyük dünyasından reportaj

Onlar da hamı kimi gəlib dünyaya. Elə gələn kimi də anlayıblar yaşamağın asan olmayacağını. Nədən ki, dünyaya gələn kimi xəstəliklə tanış olublar. Bəzilərində qalıcı olub xəstəliyin izləri, bəzilərində keçici. Keçici olan bəlalar da həyatlarında, sağlamlıqlarında bir iz qoyub, sonra keçib.

Həmin izin daha dayaz olması üçün ailələri onlarla bərabər savaşıb. Ancaq birinin serebral iflicinə, o birisinin hardan gəldiyi bəlli olmayan autizminə birdəfəlik çözüm tapan olmayıb. Onlar da çarəsiz qalıb bu xəstəliklərlə yaşamağı öyrəniblər. Bu prosesdə dövlət də onların, ailələrinin yanında olub. Nəticədə onların cəmiyyətə inteqrasiyası sürətlənib, insanlarla əlaqələri möhkəmlənib. Necə deyərlər, onları cəmiyyətə qazandıran bir mexanizm işə düşüb.

Söhbət bu dünyada cansağlığının önəmini hamıdan yaxşı anlayanlardan - sağlamlıq imkanı məhdud olan uşaqlardan gedir. Onların təhsili, məşğuliyyəti və karyerası dövləti daim düşündürür, lazım olan tədbirlər həyata keçirilir. Təhsil şəraiti yaradılır, infrastruktur qurulur, gələcəkdə hər insan kimi işləyib qazanmaları, karyera sahibi olmaları üçün genişmiqyaslı layihələr, dövlət proqramları həyata keçirilir. Məsələn, sadəcə bir təhsil müəssisəsinə - 5 nömrəli Bakı Peşə Liseyinə hər il orta hesabla 10-a yaxın sağlamlıq imkanları məhdud tələbə qəbul olunur. Onlar təhsil müddəti 3 il, 1 il və 6 ay olan kurslarda təhsilə cəlb edilir, yaşı bir, məqsədi bir olan tay-tuşları ilə bərabər təhsil alıb peşə sahibi olmaq imkanı qazanırlar. Aşpaz, bərbər, dərzi və başqa peşə sahibi olacaq həmin gənclər artıq inklüziv təhsilin əhəmiyyətini anlayıblar.

İnklüziv təhsil istər sağlam, istərsə də sağlamlıq imkanları məhdud olan şəxslərin bərabər təhsil almaq hüququnu təmin edir. 5 nömrəli Bakı Peşə Liseyinin direktor müavini Zibaxanım Cəfərli deyir ki, inklüziv təhsilin sağlamlıq imkanları məhdud olan uşaqların həyatını necə dəyişdiyinin şahidididirlər: "Azərbaycanda "İnklüziv təhsil layihəsi"nin icrasına 2005-ci ildən start verilib. Bu layihə sağlamlıq imkanları məhdud uşaqların həyatında mühüm keyfiyyət dəyişikliyinə səbəb olub.

⇨Ardı səh.6

## Dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsinə başlanılıb

2020-2021-ci tədris ilinə ölkənin dövlət ümumtəhsil müəssisələrinin I, V və IX sinifləri üçün yeni hazırlanmış və ya təkmilləşdirilmiş dərslik və metodik vəsaitlərə dair ictimai rəyin öyrənilməsi prosesinə başlanılıb. Bu məqsədlə layihələr *www.trims.edu.az* saytının "İctimai müzakirədə olanlar" bölməsində yerləşdirilib. Yaxın zamanlarda bütün layihələrin sayta yerləşdirilməsi başa çatdırılacaq.

Sayta daxil olaraq qeyd edilən bölmədə yerləşdirilmiş layihələrin məzmunu ilə tanış olmaq, orada xüsusi ayrılmış sahədə irad və təklifləri yazmaq mümkündür. İrad və təkliflər *derslik@edu.gov.az* elektron poçtuna göndərilməklə də bildirilə bilər.

Təhsil Nazirliyi elm adamlarını, təhsil işçilərini, valideynləri, aidiyyəti dövlət qurumlarını, müxtəlif ictimai birlikləri və bütün maraqlı tərəfləri müzakirəyə çıxarılmış dərslik komplektlərinin layihələrinə dair rəy, irad və təkliflərini bildirməyə dəvət edir.



# Müəllimin sosial statusunu artırmaq lazımdır

## Rusiyada qanun layihəsi hazırlanır

Səh.5

## 146-2 "Qaynar xətt" xidmətinə yanvar ayında 12 müraciət daxil olub

2020-ci ilin yanvar ayında Təhsil Nazirliyinin xüsusi hallarla bağlı 146-2 "Qaynar xətt" xidmətinə 12 müraciət daxil olub. Bakı, Sumqayıt, Şəki şəhərləri, Ağdam, İmişli və Lənkəran rayon məktəblərindən daxil olan bu müraciətlər əsasən şagirdlər arasında qısnama halları və ya şagird-müəllim arasında yaranmış münaqişə vəziyyətləri ilə bağlıdır.

Təhsil Nazirliyinin tapşırığına əsasən, müraciətlər şagirdlərin, onların valideynlərinin və müəllimlərinin iştirakı ilə yerində dərhal araşdırılıb. Araşdırma nəticəsində Bakı şəhərindəki 167, 56 və 192 nömrəli, Ağdam rayonu S.Həsənov adına Əfətli kənd, İmişli rayonu F.Rəhimov adına Cəfərli kənd 2 nömrəli tam orta məktəblərdə təsdiqini tapmış hallar həmin ümumi təhsil müəssisələrinin Pedaqoji şuralarının müzakirəsinə çıxarılıb. Fəaliyyətində nöqsanlara yol vermiş 5 məsul şəxsə töhmət verilib.



Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu, tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır.

*Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdəki çıxışından*

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş ümumtəhsil məktəb şagirdləri arasında “Ən yaxşı təqdimat” müsabiqəsinin keçirilməsi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

Müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ilə əlaqədar Ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işini daha da gücləndirmək məqsədi ilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirakı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş “Ən yaxşı təqdimat” müsabiqəsi keçirilsin.

**2.** Müsabiqə rayon (şəhər) və ölkə üzrə olmaqla 2 mərhələdə təşkil edilsin:

2.1. Müsabiqənin ilk mərhələsi 2020-ci ilin fevral-mart aylarında rayon və şəhərlərdə;

2.2. ölkə mərhələsi aprel ayında Bakı şəhərində keçirilsin.

**3.** Müsabiqənin ölkə mərhələsinin iştirakçıları üçün aşağıdakı qaydada kvota müəyyənləşdirilsin:

3.1. Bakı şəhərindən - 12 nəfər;

3.2. Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərinin hər birindən və Abşeron rayonundan - 2 nəfər;

3.3. digər şəhər və rayonların hər birindən - 1 nəfər;

3.4. Təhsil Nazirliyinin birbaşa tabeliyindəki və özəl ümumi təhsil müəssisələrindən ümumilikdə - 3 nəfər.

**4.** Təhsilin inkişafı proqramları şöbəsi (N.Hüseynova) Təhsil Nazirliyinin birbaşa tabeliyindəki və özəl ümumi təhsil müəssisələrindən müsabiqənin ölkə mərhələsində iştirak edəcək şagirdlərin seçilməsini təmin etsin.

**5.** Təhsilin inkişafı proqramları şöbəsi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri müsabiqənin ilk mərhələsini mütəşəkkil keçirmək üçün işçi qrupu və münsiflər heyəti yaratsınlar, müəyyən etdikləri meyarlar əsasında iştirakçıları qiymətləndirib qaliblərin adlı siyahısını (SAA, oxuduğu məktəb, sinif və tədris dili) mart ayının 30-dək Ümumi və məktəbəqədər təhsil şöbəsinə təqdim etsinlər.

**6.** 2020-ci ildə müsabiqə “Mən fəxr edirəm ki, azərbaycanlıyam!” başlığı altında müəyyən olunmuş mövzular əsasında təşkil edilsin (1-ci əlavə). Ölkə mərhələsində iştirakçılar təklif edilən mövzuların adı yazılmış 17 zərfdən birini götürməklə orada qeyd olunmuş mövzu üzrə çıxış edəcəklər.

**7.** Müsabiqənin ölkə mərhələsi iştirakçılarının təqdimatlarının qiymətləndirmə meyarları və qiymətləndirməni aparan işçi qrupunun tərkibi təsdiq edilsin (2 və 3-cü əlavələr).

**8.** Müsabiqənin qalibləri diplom, tərifnamə və qiymətli hədiyyələrlə mükafatlandırılsın.

**9.** Ümumi və məktəbəqədər təhsil şöbəsi (V.Yaqublu) müsabiqənin ölkə mərhələsinin nəticələri barədə əmr layihəsini müsabiqə başa çatdıqdan sonra 3 gün müddətinə hazırlayıb rəhbərliyə, müsabiqə ilə bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.

**10.** Maliyyə şöbəsi (R.Orucov) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsin.

**11.** Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) müsabiqənin yekun tədbirinin keçirilməsi, qaliblərin mükafatlandırılması ilə əlaqədar mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

**12.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin əlavələri ilə birlikdə “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını, Nazirliyin internet səhifəsində yerləşdirilməsini və yerlərə çatdırılmasını təmin etsin.

**13.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*19 fevral 2019-cu il*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.02.2020-ci il tarixli F-115 nömrəli əmrinə 1-ci əlavə*

## “Mən fəxr edirəm ki, azərbaycanlıyam!” başlığı altında keçirilən müsabiqədə şagirdlərin təqdimat edəcəyi mövzular

1. Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir
2. Heydər Əliyev xarizmatik liderdir
3. Heydər Əliyev və mənim doğma şəhərim (rayonum)
4. Heydər Əliyev: “Qarabağ mənim ürəyimdir!”
5. Heydər Əliyev və Azərbaycan təhsili
6. Heydər Əliyevin Azərbaycan dilinin dövlət dili kimi inkişafında rolu
7. Heydər Əliyevin timsalında nümunəvi şagird
8. Heydər Əliyev uşaqların dostudur
9. Heydər Əliyevin gənclər siyasətinin əsas istiqamətləri
10. Heydər Əliyevin gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyəsi istiqamətində çağırışları
11. Heydər Əliyev: Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı
12. Heydər Əliyev Azərbaycan ordusunun qurucusudur
13. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının yüksəlişi
14. Heydər Əliyevin Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafı sahəsində xidmətləri
15. Heydər Əliyevin 20 Yanvar hadisələrinə münasibəti və barışmaz mövqeyi
16. Heydər Əliyevin uzaqgörən xarici siyasətinin nəticələri
17. Heydər Əliyev dünya liderlərinin gözündə

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.02.2020-ci il tarixli F-115 nömrəli əmrinə 2-ci əlavə*

## “Ən yaxşı təqdimat” müsabiqəsinin ölkə mərhələsi iştirakçılarının təqdimatının qiymətləndirmə meyarları

1. Təqdimatın sərbəstliyi
2. Təqdimatçının lüğət ehtiyatının zənginliyi.
3. Çıxış etdiyi mövzu ilə bağlı dolğun və əhatəli məlumata malik olduğunu nümayiş etdirməsi.
4. İrəli sürdüyü fikirləri faktlarla əsaslandırması.
5. Danışdığı mövzu ilə bağlı şəxsi mülahizələrini bildirməsi və yaradıcılıq səviyyəsi.

**Qeyd:** İştirakçıların çıxışı hər bir meyar üzrə maksimum 5 bal olmaqla, ümumilikdə 25 balla qiymətləndirilir.

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.02.2020-ci il tarixli F-115 nömrəli əmrinə 3-cü əlavə*

## “Ən yaxşı təqdimat” müsabiqəsinin ölkə mərhələsi iştirakçılarının təqdimatlarının qiymətləndirilməsini aparan işçi qrupunun tərkibi

**İşçi qrupunun sədri**

Firudin Qurbanov - Təhsil nazirinin müavini

**İşçi qrupunun həmsədri**

Mirzə Cəfərzadə - Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini

**İşçi qrupunun məsul katibi**

Gülarə Xudiyeva - Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin aparıcı məsləhətçisi

**İşçi qrupunun üzvləri**

Fərzəli Qədirov - Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini

Vəfa Yaqublu - Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri

Əsgər Quliyev - Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin müdir müavini

Vidadi Bağırov - Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin Keyfiyyətin təminatı sektorunun müdiri

Azad Şükürov - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Səhnə danışığı kafedrasının müdiri

İntiqam Cəbrayılov - Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsinin müdiri

# Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin aprel ayında Azərbaycanın görkəmli yazıçısı və dövlət xadimi Nəriman Nəcəf oğlu Nərimanovun anadan olmasının 150 illiyi tamam olur.

Nəriman Nərimanov məşhur yazıçı, dramaturq, publisist və maarifçi kimi Azərbaycan ədəbiyyatının qabaqcıl ideyalarla və demokratik fikirlərlə zənginləşməsində böyük rol oynamışdır. Onun zamanın vacib məsələlərinə toxunan və əsas qayəsini maariflənməyə, mədəni yüksəlişə çağırış təşkil edən əsərlərində dərin insanpərvərlik ruhu hakimdir. Nəriman Nərimanov dramaturgiyası Azərbaycan teatrının inkişafına dəyərli töhfələr vermişdir. Milli bədii nəsr tarixində də özünəməxsus layiqli yer tutan vətənpərvər ədib, həmçinin ciddi və aktual publisistika nümunələrinin müəllifi olaraq tanınmışdır.

Nəriman Nərimanovun bədii yaradıcılığı ilə ictimai və siyasi fəaliyyəti arasında üzvi bağlılıq vardır. Onun ömrünün mühüm hissəsi qəlbən inandığı və həyatının başlıca vəzifəsi sayaraq müqəddəs amala çevirdiyi xalq işi uğrunda ardıcıl mübarizələrdə keçmişdir. Siyasi çarpışmaların daha da gərginləşdirdiyi son dərəcə mürəkkəb şəraitə baxmayaraq, Nəriman Nərimanov milli maraqları daim üstün tutan rəhbər kimi taleyüklü problemlərə münasibətdə xalqımızın mənafeyini imkanlarının ən son həddinədək müdafiə etmişdir. O, keçmişimizin mədəni sərvətlərinin mühafizəsinə, ana dilinin saflığı məsələlərinə xüsusi diqqət yetirmiş, elmin, maarifin və mədəniyyətin inkişafı yolunda var qüvvəsi ilə çalışmış, dövrün milli məfkurə daşıyıcısı olan şəxsiyyətlərinə ehtiram və qayğı ilə yanaşmışdır.

Nəriman Nərimanovun XX əsr Azərbaycan tarixində əhəmiyyətli iz qoymuş ictimai-siyasi fəaliyyəti məhz ulu öndər Heydər Əliyevin nüfuzu və qətiyyəti sayəsində layiqli qiymətini alaraq bütöv şəkildə doğma xalqa çatdırılmışdır. Nəriman Nərimanovun 100 və 125 illik yubileylərinin təntənə ilə qeyd edilməsinin, Bakıda əzəmətli abidəsinin ucaldılmasının və ev-muzeyinin yaradılmasının, həmçinin ölkəmizin hüdudlarından kənarda xatirəsinin əbədiləşdirilməsinin təşəbbüskarı ümummilli lider Heydər Əliyev olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın görkəmli yazıçısı, dövlət və ictimai-siyasi xadimi Nəriman Nərimanovun anadan olmasının 150 illiyinin qeyd edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, görkəmli yazıçı və dövlət xadimi Nəriman Nərimanovun 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 14 fevral 2020-ci il*

# Zərdab şəhərində vətəndaşlar qəbul ediləcək

### Ucar və Zərdab rayon sakinlərinin nəzərinə!

Təhsil nazirinin müavini Firudin Qurbanov 28 fevral 2020-ci il tarixində saat 11:00-da Zərdab şəhərindəki Heydər Əliyev Mərkəzində 2020-ci ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Ucar və Zərdab rayon sakinlərini qəbul edəcək. Qəbulda Ucar və Zərdab rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşlar 19-26 fevral (saat 18:00-dək) 2020-ci il tarixlərində Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinin 146-1 nömrəli telefonuna (“Qaynar xətt” xidməti) zəng etməklə və ya nazirliyin rəsmi saytının “Vətəndaşların qəbulu” bölməsinə daxil olmaqla *(http://edu.gov.az/az/contacts/request)* elektron qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan keçmiş vətəndaşlardan xahiş olunur ki, qəbula gələrkən aidiyyəti məsələləri dolğun ifadə edən ərizə ilə müraciət etsinlər.

# “Ədəbiyyat biliciləri” müsabiqəsinin şəhər mərhələsi

“Ədəbiyyat biliciləri” müsabiqəsinin şəhər mərhələsi keçirilib.

Müsabiqənin şəhər mərhələsində Bakı şəhərinin 12 inzibati rayonu üzrə VIII-XI sinif şagirdləri 3 saat vaxt ərzində yazılı tapşırıq yerinə yetiriblər. Tapşırıqların cavabları müvafiq meyarlar əsasında qiymətləndiriləcək.

Müsabiqənin yekun turu isə mart-aprel aylarında Bakı şəhərində təşkil olunacaq. Finalda müsabiqə iştirakçıları 3 variantda təklif olunmuş mövzulardan birini seçərək inşa yazmalı və sorğu vərəqində onlara təqdim olunmuş 10 sualı yazılı cavablandırmalıdırlar.

İnşa yazı 10 ballıq şkala üzrə, 10 sualın hər biri isə maksimum 10 balla qiymətləndiriləcək. Hər bir iştirakçının yekun balı hər iki tapşırığa verilən ballar əsasında müəyyən olunacaq.

Müsabiqədə I, II, III yerlərə layiq görülmüş iştirakçılar mükafatlandırılacaq.

Qeyd edək ki, “Ədəbiyyat biliciləri” müsabiqəsinin keçirilməsinin əsas məqsədi şagirdlərin Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılıqları haqqında məlumatlılıq səviyyəsini artırmaq, ədəbiyyat nümunələrinin məktəblilər tərəfindən mütaliə olunması vəziyyətini öyrənmək və mütaliə sahəsində xüsusi fəallığı ilə fərqlənən şagirdləri aşkara çıxarıb rəğbətləndirməkdən ibarətdir.

# "Ümumi təhsil: mövcud vəziyyət və gələcək hədəflər"

## Təhsil Nazirliyi aparatının əməkdaşları və yerli təhsili idarəetmə orqanları rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib





Fevralın 14-də Təhsil Nazirliyi aparatının əməkdaşları və yerli təhsili idarəetmə orqanları rəhbərlərinin iştirakı ilə "Ümumi təhsil: mövcud vəziyyət və gələcək hədəflər" mövzusunda müşavirə keçirilib.

Tədbirdə Təhsil naziri Ceyhun Bayramov çıxış edərək təhsilin keyfiyyəti və buna təsir edən amillər, son illər təhsil sahəsində aparılan yeniliklər, innovasiyaların tətbiqi və vətəndaş məmnuniyyətindən danışıb. Ötən il yerli təhsili idarəetmə orqanları rəhbərlərinin, məktəb direktorlarının iştirakı ilə zona müşavirələrinin keçirildiyini, hər bir qurumun fəaliyyətinə dair illik hesabatların dinlənildiyini deyən Təhsil naziri bu məzmunda tədbirlərin cari ildə də davam etdiriləcəyini bildirib. Rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin) qarşısında duran vəzifələrə toxunan Ceyhun Bayramov qeyd edib ki, yerli təhsili idarəetmə orqanları tabeliyində olan bütün məktəblərin vəziyyətinə dair monitorinqləri davamlı aparmalı, əldə olunan nəticələrə əsasən adekvat tədbirlər görməlidir. Nazirin sözlərinə görə, IX və XI sinif buraxılış imtahanlarının nəticələri ciddi təhlil edilməli və bundan nəticə çıxarılmalıdır.

Nazir həmçinin məktəblərin dərsliklərlə təminatından, məktəb-valideyn münasibətlərinin düzgün qurulmasından, regionlarda istedadlı uşaqlarla işin təşkilindən, məktəbdənkənar fəaliyyətin vacibliyindən danışıb.

Daha sonra çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva yerli təhsili idarəetmə orqanlarının rəhbərlərinə təklif və tövsiyələrini verib. Məhəbbət Vəliyeva təqdimatında tədris ilinin prioritet istiqamətlərindən, məktəb rəhbərlərinin üzərinə düşən funksiyalardan söz açıb, bölgələr üzrə müvafiq nəticələri diqqətə çatdırıb.

Müşavirədə "Təhsildə keyfiyyətin təminatı", "Təhsilin maliyyələşdirilməsi və müasir təchizat sisteminin yaradılması", "Tədris resursları ilə təminat və ehtiyat dərsliklər", "İnsan resurslarının idarə edilməsi və elektron məlumat bazasının təkmilləşdirilməsi" mövzularında panel müzakirələr keçirilib.

Yekunda Təhsil Texnologiyaları Mərkəzi ilə tanışlıq olub.

# Ana dilim - dövlət dilim

## Dilimizi qorumaq hər bir azərbaycanlının müqəddəs borcudur

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Bir sözlə, 2000-ci ildən bəri dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq üçün fevralın 21-i Beynəlxalq Ana Dili Günü kimi qeyd edilir.

### Azərbycan dili dövlət dili elan olunur

Ana dilinin dövlət dili olması, bu statusunun qorunması uğrunda daim mübarizə aparmaq məcburiyyətində qalan millətlərdən biriyik. Milli mənsubiyyətimizi, milli mövcudluğumuzu təsdiq etməkdən ötrü göstərdiyimiz hər cəhdimiz müqavimətlə qarşılaşdığından bu tarix bizim üçün önəmlidir. Keçdiyimiz tarixi yolda sevindirici məqam ondan ibarətdir ki, qarşıya çıxan müqaviməti qıracaq, tarixi əhəmiyyətli qərarlara imza atacaq cəsarəti olan liderlər də yetişdirib xalqımız. Ötən əsrə aid, sadəcə bir fakt. Azərbaycanda sovet hakimiyyətidir. "Müstəqil" 15 respublikadan biri sayılsa da, Azərbaycanda ana dilinin hökmü keçmir. Xatırladaq ki, sovet hakimiyyəti dövründə, xüsusən də 20-ci, 30-cu, 40-cı, 50-ci, hətta 60-cı illərdə əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət respublikamızda Azərbaycan dili hakim dil deyildi. Üstəlik, o illərdə ana dilimizin inkişaf etdirilməsi və zənginləşdirilməsi qeyri-mümkün görünürdü. Azərbaycan dilinin dövlət dili statusu qazanmasında qətiyyəti mühüm rol oynayan Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlişi Azərbaycan dilinə rəsmi münasibəti əsaslı surətdə dəyişdi. Respublika rəhbəri dövlət dili sahəsində fəaliyyətə onun işlənmə sferasını və fəaliyyət dairəsini genişləndirməkdən başladı. Nəticədə böyük müqavimətə baxmayaraq, 1978-ci ildə Azərbaycan dilinə dövlət dili statusu verildi. Məhz Heydər Əliyevin respublikaya rəhbərliyi dövründəki fəaliyyətinin nəticəsi olaraq, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit edildi. Bu addım, dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər tutulan, gələcəyin müstəqil Azərbaycanı naminə bir addım oldu. Axı, millətin dilinin dövlət dili statusuna yüksəlməsi tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahib çıxmağının, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, dilinin zənginliyinin sübutudur. Bu mənada, dilin dövlət dili statusu qazanması qürurverici tarixi hadisədir. Azərbaycan dili bu tarixi hadisəni növbəti dəfə 1995-ci il noyabrın 12-də dahi şəxsiyyət Heydər Əliyevin liderliyi ilə yaşadı. Həmin gün qəbul edilən müstəqil dövlətimizin Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan olundu. Konstitusiyanın 21-ci maddəsində deyilir: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

### Azərbaycan dövləti dilin inkişafını təmin edir

Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi haqqının bərpası istiqamətində atılmış vacib addımlardan biri 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanın imzalanması oldu. Fərmanda Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilir, əvvəlki on il ərzində tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilirdi. Bu sənəddə problem və nöqsanlar da müəyyənləşdirilərək onların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verildi və 2001-ci il avqust ayının 1-dən latın qrafikalı Azərbaycan əlifbasına keçilməsi qərara alındı.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım oldu.

Müstəqilliyin sonrakı illərində Prezident İlham Əliyevin ana dilinin dövlət dili kimi geniş, maneəsiz işləkliyi üçün göstərdiyi siyasi, milli iradə ön plana çıxır. Görülən məqsədyönlü işlər Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə və türk dilləri arasında mötəbər mövqe qazanmasına xidmət edir.

Prezident İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2004-cü il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il 30 dekabrda "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları ana dilinin həyatımızın bütün sahələrində tam və müfəssəl tətbiqini gerçəkləşdirdi.

### Bizə miras qalanı, gəlin, biz də hədiyyə verək

Bu gün Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Hazırda bu ənənələri Prezident İlham Əliyev uğurla davam etdirir. Təbii ki, bu istiqamətdə vətəndaşın da üzərinə düşən məsuliyyət var. Dili nəsildən-nəslə ötürmək, ana dilimizi qorumaq və inkişaf etdirmək hər bir azərbaycanlının müqəddəs borcudur.

Dünyanın ən qədim dillərindən biri olan laylalı-bayatılı ana dilimiz... Qarşımızda duran əsas məsələ odur ki, Bəxtiyar Vahabzadənin təbirincə desək, ruhumuz, eşqimiz, canımız, bir-birimizlə əhdi-peymanımız olan bu dili "Qoruyub, nəsillərə biz də hədiyyə verək".

# Təhsil Nazirliyi və Baş Prokurorluğun birgə məlumatı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən uğurlu islahatlardan biri kimi, təhsil sektorunun inkişafına yönələn dövlət proqramları və layihələrin icrası nəticəsində təhsil xidmətlərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində mühüm addımlar atılır.

Bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə sala biləcək qanunsuz hərəkətlərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilməkdədir.

Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktorunun qanunsuz hərəkətləri barədə daxil olmuş məlumatlar əsasında Təhsil Nazirliyinin əməkdaşlarının iştirakı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir.

Bu tədbirlərlə Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru Xaləddin Ələkbərovun Kollecin direktor müavini İlqar Dursunovun vasitəsilə tələbələrin qış imtahan sessiyasından müvəffəqiyyətlə keçməsi, dərslərdə iştirak etməyənlərin davamiyyətinin nizama salınması, tələbələrin aylıq pul müqabilində dərslərdən buraxılması, digər təhsil müəssisələrindən köçürülməsi və sair hallarla bağlı kütləvi şəkildə rüşvət almasına əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.3.1 və 311.3.2-ci (Rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanmışdır.

Cinayət işi üzrə hərtərəfli, tam və obyektiv istintaq aparılmasını təmin etmək məqsədilə Bərdə İdarəetmə və Texnologiya Kollecinin direktoru Xaləddin Ələkbərovun və direktor müavini İlqar Dursunovun xidməti otaqlarında məhkəmə qərarı ilə axtarış aparılmış, Kollecin tələbələrinə məxsus tələbə biletləri və diplomlar, tələbələrdən alınmış müxtəlif məbləğlərdə pul vəsaitlərinə dair qeydlər və iş üzrə digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülmüşdür.

İstintaq zamanı toplanmış ilkin sübutlarla Xaləddin Ələkbərovun və İlqar Dursunovun qeyd edilən qanunsuz hərəkətləri törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, onlar şübhəli şəxs qismində tutulmuşdur.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və həmin şəxslərin qanuni mənafelərini pozmuş olduqları Kollec tələbələrinin dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Təhsil Nazirliyi bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlardan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı və Təhsil Nazirliyinin 146 saylı "Qaynar xətt" əlaqə mərkəzlərinə məlumat vermələrini xahiş edir.

# BDU tələbələri "AzerGold"-da təcrübə keçəcək

Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) İdarə Heyəti sədrinin müavini Xəyyam Fərzəliyev və Cəmiyyətin digər nümayəndələri ilə görüş keçirib.

BDU və "AzerGold" QSC arasında imzalanmış protokola uyğun olaraq keçirilən görüşdə illik müştərək fəaliyyət planı müzakirə olunub.

Protokola uyğun olaraq universitetdə "AzerGold" QSC-nin fəaliyyəti ilə bağlı təqdimatın keçirilməsi, gənc mütəxəssislər üçün "Universitetdən karyeraya uğurlu keçid" mövzusunda seminarların təşkili, universitet tərəfindən keçiriləcək Karyera Həftəsində "AzerGold" QSC-nin əməkdaşlarının iştirakının təmin edilməsi, o cümlədən Cəmiyyətin fəaliyyət istiqamətlərinə uyğun ixtisasları üzrə təhsil alan tələbələrin istehsalat təcrübəsinə göndərilməsi həyata keçiriləcək. Görüşdə "AzerGold" QSC-nin əməkdaşları tərəfindən BDU-da təhsil alan tələbələr üçün müvafiq proqramlar üzrə master-klassların təşkili, həmçinin universitet tələbələrinə geoloji-kəşfiyyat və dağ-mədən sənayesinin özəllikləri mövzusunda təlim - seminarın keçirilməsi barədə də ilkin razılıq əldə olunub.

Sonda "AzerGold"-un nümayəndələri universitetin geologiya və coğrafiya fakültələrində olub, Faydalı Qazıntılar Muzeyini ziyarət ediblər.

# Təhlükəsiz təhsil mühitinin yaradılmasında müəllimlərin rolu

## YUNESKO müəllimlər arasında sorğu keçirir

**Oruc MUSTAFAYEV**

Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO) müəllimləri təhlükəsiz və zorakı olmayan təhsil mühitinin yaradılmasında pedaqoqların rolu ilə bağlı sorğuda iştirak etməyə dəvət edir. Sorğu BMT-nin altı rəsmi dilində, o cümlədən rus dilində dünyanın bütün ölkələrində keçirilir.

Sorğu müəllimlərin məktəbdə zorakılığı necə başa düşdükləri, ona necə reaksiya verdikləri və hansı təlim proqramlarının məktəbdə zorakılıq hallarına cavab vermək üçün onlara daha hazırlıqlı və özünə inamlı olmağa kömək edə biləcəyi barədə məlumat əldə etməyə imkan verəcək.

"Əldə edilmiş məlumatlar bütün maraqlı tərəflərin məktəb zorakılığı probleminə diqqətinin cəlb edilməsi, zorakılığın profilaktikası və qarşısının alınmasında effektiv üsulların yaradılması üçün istifadə olunacaq", — deyə YUNESKO-nun Təhsildə İnformasiya Texnologiyaları İnstitutunun məlumatında bildirilir.

Təşkilatçılar iştirakçı tərəfindən verilən bütün məlumatların anonim qalacağına zəmanət verirlər.

Təşkilatın bildirdiyinə görə, dünyada hər üçüncü şagird zorakılıq və təhqirlə üzləşir. Təqiblərə məruz qalan uşaqlar və yeniyetmələr digər həmyaşıdları ilə müqayisədə iki dəfə daha çox intihar haqqında ciddi düşünür, depressiyadan əziyyət çəkir, dərs məşğələlərini buraxırlar. Yəni onların sağlamlıq problemləri var.

Bütün uşaqlar və yeniyetmələr, gənclər, müəllimlər, tələbələr üçün təhlükəsiz, zorakı olmayan, inklüziv və effektiv təhsil mühitində təhsil almaq imkanlarının təmin edilməsi YUNESKO və milli təhsil sistemi üçün strateji prioritetdir.

# Məktəblini, müəllimi DOST bilənlər

## *Firudin Qurbanov:* "Sizin fəaliyyətiniz ölkə təhsili üçün olduqca önəmlidir"





Ruhiyyə DAŞSALAHLI

"Sinifdə, sözün əsl mənasında, həyəcan və qorxu vardı. Əlini pəncərədən çəkib sakitləşdirəndən sonra hiss etdim ki, məni soyuq tər basıb".

Məktəblinin dostu Aydın Mirzəyevin fəaliyyəti məktəblərdə qarşısına çıxmış unudulmaz xatirələrlə zəngindir. Onların arasında acı olanlar da var. Xatırlayanda belə soyuq tər basan o hadisədən məktəblinin dostu bunları danışır:

"Çox həyəcanlı bir gün idi. Bir məktəblini ölümdən qaytardıq. Biz, əslində dərslərə müdaxilə etmirik. Ancaq dəhlizdə gəzərkən qapısı aralı olan sinifdən həyəcanlı səslər eşitdim. VIII siniflərin dərsi idi. Səs-küyün səbəbini öyrənmək məqsədilə qapıya yaxınlaşanda məktəblinin birinin yerdə uzandığını, digərinin açıq pəncərədən aşağı atdanmağa hazırlaşdığını gördüm. Pəncərənin astanasında dayanan məktəbli əlləri ilə çöl tərəfdən çərçivədən yapışmışdı. Əsəbi olduğu aydın görünürdü. Sinifdə hamı təəccüb, həyəcan, qorxu dolu baxışlarla baş verənləri izləyirdi. Pəncərədə olan uşağa yaxınlaşıb ondan yapışdım. Mən əlimi atanda o bir əlini buraxdı. Hələ pəncərədən yapışdığı əlindən tutub onu özümə sarı çəkdim. Əli (ad şərtidir - R.D.) pəncərədən düşəndə belə partanı, stulları təpikləyirdi. Onu sinifdən çıxarıb məktəblinin dostları ilə birgə sakitləşdirdik. Valideynini çağırdıq. Məlum oldu ki, həmin gün Əli əsəbi olub. Ailəsində də problemləri olan bir şagirddir. Ata-anası ayrılıb, o, anası ilə yaşayır. Atasının bacısı onun atasıyla danışmasına, görüşməyinə icazə vermirdi. Həmin gün sinifdə əvvəlcə bir yoldaşı ilə dalaşıb. Ona kömək etmək istəməyən sinif yoldaşı ilə mübahisə edərək onu ağladıb. Onların mübahisəsindən narahat olan autizmli şagird qışqıraraq yoldaşlarını sakitliyə dəvət edəndə bu dəfə Əli ona hirslənib. Mübahisə edərək onu vurub yıxıb, sonra pəncərəyə çıxıb özünü atmağa cəhd edib. Həmin vaxt da mən sinfə gedib çıxdım".

Bu hadisədən Aydın Mirzəyev, həmin məktəbdəki məktəblinin dostları və ümumiyyətlə, "Məktəblinin dostu" layihəsi üzüağ çıxdı. Aydın Mirzəyevin düzgün qərar verməsi və vaxtında müdaxiləsi layihənin uğurları siyahısında yer aldı.

### "Uşaqlarla işləməyi çox sevirəm"

Aydın layihənin icrasına başlanılan ilk gündən, 2016-cı ilin dekabrından məktəblinin dostudur. İndiyədək müxtəlif məktəblərdə çalışıb. Hazırda fəaliyyətini 63 nömrəli tam orta məktəbdə davam etdirir. Məktəblinin dostu olmağı "çətin və məsuliyyətli iş" hesab edir: "Məktəblərdə ilk diqqət etdiyimiz məsələ təhlükəsizlikdir. Buna artıq nail olmuşuq. Uşaqların, sadəcə təhlükəsiz yox, həm də sağlam mühitdə təhsil almasını təmin etməyə çalışırıq. Nəticədə məktəblərdə nə müəllimlər şagirdlərə qarşı, nə də şagirdlər müəllimlərə qarşı kobud rəftar edir. Olduğumuz məktəblərdə qarşılıqlı anlayış bərqərardır".

Məktəblinin dostu kimi fəaliyyətinin ona qazandırdıqlarına gəlincə, Aydının fikrincə, bu təcrübə onu sürətlə yüksəldəcək: "Mədəniyyət və İncəsənət Universitetini "Menecment" ixtisası üzrə bitirmişəm. İxtisasım pedaqoji deyil. Ancaq məktəbdə topladığım təcrübədən sonra bu istiqamətdə də uğur qazana biləcəyimi deyə bilərəm. Uşaqlarla işləməyi çox sevirəm. Üstəlik, hər gün valideynlərlə ünsiyyətdə olduğumuzdan bu iş mənə vətəndaşlarla işləməyi öyrətdi. Sonradan anladım ki, bu işdə idarəetmə, liderlik qabiliyyətim inkişaf edir. Burada qazandığım təcrübəyə əsaslanıb "Yüksəliş" müsabiqəsinə də qatıldım. İlk mərhələdən uğurla keçdim. Məktəblinin dostu olaraq qazandığım təcrübənin bu müsabiqənin, xüsusən ikinci mərhələsində çox köməyimə gələcəyinə əminəm".

Aydın Mirzəyev də daxil olmaqla, fəaliyyəti boyunca xüsusi təşəbbüskarlıq və peşəkarlıq nümayiş etdirən 20 məktəblinin dostu bu günlərdə təltif edilib. Mükafatlananlar arasında "Məktəblinin dostu" layihəsinin 5 əməkdaşı və 2 psixoloq da var.

### "Orada məktəblinin dostları olmasaydı, necə olardı, bilmirəm!"

Məktəblinin dostu Sayad Əhmədli də 4 ildir fəaliyyət göstərir. Azərbaycan Dillər Universitetini "İngilis dili müəllimliyi" ixtisası üzrə bitirib. Məzun olan ildən məktəblinin dostu olaraq çalışır. Bu işin həyatına təsirindən danışaraq deyib: "Uşaqlara qarşı çox həssas olduğumun məktəbdə fəaliyyətə başlayandan sonra fərqinə vardım. Onların heç bir probleminə qarşı biganə qala bilmirəm. Fəaliyyətim dövründə bir hadisəni heç unutmuram. Bir dəfə şagirdlərdən birinin pilləkanın altında huşunu itirdiyini kameradan gördük. İlkin yardım göstərdik və uşaq özünə gəldi. Məktəb kameralaşdırılmasa və orada məktəblinin dostları olmasaydı, o uşağın axırı necə olardı, bilmirəm. Çünki həmin yer gediş-gəliş olmayan və nəzərə çarpmayan bir yer idi. Fəaliyyətim dövründə artıq ikinci məktəbdə işləyirəm. Hər iki məktəb şagird sayı çox olan - 4000-4500 nəfərlik müəssisələrdir. Belə bir yerdə çalışmaq, məktəblilərlə işləmək səbrli olmağıma səbəb oldu. Onların acısını, hisslərini bölüşməyi öyrəndim".

### "Həyatın onlara vurduğu zərbənin təsirini azaltmaq imkanımız var"

Nəriman İmanov üçün də məktəblinin dostu olmaq səbr deməkdir. Azərbaycan Dövlət Pedaqoji Universitetini "Tarix müəllimliyi" ixtisası üzrə bitirən Nəriman hazırda məktəblinin dostu kimi fəaliyyətindən çox razıdır: "Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1nömrəli tam orta internat məktəbində məktəblinin dostu olaraq fəaliyyət göstərirəm. Hesab edirəm ki, bu müəssisələr məktəblərdən fərqlənir. Buradakı uşaqlar artıq bir dəfə zərbə alıblar. Həyatın onlara vurduğu zərbənin təsirini azaltmaq imkanımız daxilindədir. Biz də məhz bunu etməyə çalışırıq".

### "İndi özümü buradan kənarda təsəvvür etmirəm"

Pərvin Məhəmmədli Yasamal rayonundakı 158 nömrəli tam orta məktəbdə fəaliyyət göstərir. 3 illik fəaliyyətində artıq üçüncü məktəbdədir. Məktəblərdə o qədər çox hadisələrlə qarşılaşıb ki, "danışmaqla bitməz", - deyir: "Tez-tez təəccüblənir, hətta qorxurdum. Bir dəfə məktəbin divarına dırmaşan şagirdin dərsdən qaçdığını düşündüm, ancaq sonradan məlum oldu ki, məşq edir. İlk vaxtlar tez-tez təəccüblənirdim. Artıq heç nəyə təəccüblənmirəm".

Məktəblinin dostu son 3 ildə özünün də dəyişdiyini müşahidə edir: "Səbirsiz idim, indi çox səbrliyəm. Söhbət eləməyi sevməzdim, məni indi görün. Çox maraqlı söhbət edirəm. Uşaqlara yanaşmam tamamilə dəyişib. Körpələrə belə nə olar, nə olmaz, etdiyimizin hansı doğru, hansı yanlışdır, deyə diqqət edirəm. Ən çox da öz səhvlərimi anlamışam. Məktəbdə şagird kimi mənə yanlış gələn, mənə haqsızlıq kimi görünən bir çox şeyin, əslində haqsızlıq olmadığını indi başa düşür, müəllimlərə haqq qazandırıram. Müşahidə edirəm ki, mənə zamanında haqsızlıq kimi görünən hallara indiki şagirdlərin də yanaşması eynidir. Ona görə onları anlamaq, doğru yanaşmanı uşaqlara göstərmək mənə çətin olmur".

Məktəblinin dostu deyir ki, şagirdlərə sözünü qəbul etdirmək onlar üçün çətin olmur: "Şagirdlər bizim sözümüzü bir az da yaşımızdan irəli gələn səbəblərdən daha tez qəbul edirlər. Bizi öz yaşıdları, dostları kimi görürlər. Ona görə sözümüzü anlamaları daha asan olur".

Məktəblinin dostu olana qədər özü ilə bağlı qurduğu xəyalları da dəyişib: "Artıq hər hansı oturaq işdə özümü təsəvvür etmirəm. Halbuki universitet illərində "ASAN Xidmət"də işləməyi arzulayırdım. Bu məqsədlə "ASAN könüllü" olmuşdum. Məktəblinin dostu məhz "ASAN Xidmət"də könüllü fəaliyyətimin nəticəsində seçilmişəm. İndi özümü buradan kənarda təsəvvür etmirəm. Günün sonunda insan öz-özünə hesabat verəndə "bu gün 3 yaxşılıq etdim, 5 dua aldım" - deyir və buna görə özü ilə fəxr edir".

### "Sizdən uğurlu nəticələr gözləyirik"

Məktəblinin dostları, onların fəaliyyətinin nəticələrinə Təhsil Nazirliyi də xüsusi əhəmiyyət və diqqət verir. Bu fikri Təhsil nazirinin müavini Firudin Qurbanov ayrı-ayrı vaxtlarda, Bakıdakı müxtəlif təhsil müəssisələrində məktəblinin dostu olaraq fəaliyyətə başlayan gənclərə təltif edərkən deyib. Onlara vəzifələrinin icrasında diqqət etməli olduğu məqamlarla bağlı tövsiyələrini verib. Nazir müavini əvvəlcə məktəbdə şagird-şagird, müəllim-şagird münasibətlərinin tənzimlənməsində layihənin əhəmiyyətindən, əldə edilən müsbət nəticələrdən danışıb: "Məktəblərdə bəzən müəllim-şagird-valideyn münasibətlərində anlaşılmazlıqlar baş verir, nəticədə xoşagəlməz hadisələr olurdu. Sadəcə mübahisəli vəziyyətləri, riskli məqamları idarə etmək üçün deyil, həm də təlim-tərbiyə prosesini tənzimləmək, istedadlı şagirdlərin aşkara çıxarılması və onların düzgün inkişafını təmin etmək məqsədi ilə belə bir layihəyə dəstək verildi. Əvvəlcə 30 məktəbdə bu layihənin icrasına başlanıldı və yüksək nəticə əldə olundu. Hazırda 70 məktəbdə məktəblinin dostları fəaliyyət göstərir".

Hər bir şagirdə fərdi yanaşmanın vacibliyini vurğulayan Firudin Qurbanov məktəblinin dostu olmağı çox mürəkkəb və məsuliyyətli vəzifə hesab edib: "Həm şagirdlər, həm müəllimlər, həm də valideynlərlə işin özünəməxsus çətinlikləri var. Onlar arasında əlaqə yaratmaq, zəif, problemli nöqtələri vaxtında aşkara çıxartmaq, hər hansı xoşagəlməz vəziyyətin qarşısını vaxtında ala bilmək çox böyük məharət tələb edir".

Məktəblinin dostu vəzifəsini uğurla icra etmək üçün insanda səbr və həvəs, yüksək ünsiyyət mədəniyyəti və mənəviyyat, kommunikasiya və komanda ilə işləmək bacarığı kimi yüksək keyfiyyətlər tələb olunduğunu deyən nazir müavini məktəblinin dostlarının işini mürəkkəbləşdirən bir çox amillərə toxunub. IV sənaye inqilabı dövründə xalqımıza məxsus milli-mənəvi dəyərləri qoruyub-saxlamaq üçün məktəblinin dostunun üzərinə düşən məsuliyyətdən danışıb: "Siz məktəbdə bir növ mentorsunuz. Çalışmalısınız ki, uşaqlara doğru yolu göstərəsiniz. Onların hansı problemi olduğunu vaxtında görməyə çalışmalısınız. İndiyədək sizin uğurlu fəaliyyətiniz sayəsində uşaqların psixoloji durumu və başqa problemlərdən irəli gələn bir çox hadisələrin qarşısı alınıb. Məktəblərdə bəzi problemlər biganəlikdən baş verib. Siz məhz bu biganəliklə mübarizə aparmalısınız. Hamıdan fərqlənməli, çox həssas olmalısınız".

### "Məktəbdə şagirdin də, müəllimin də dostu olmağı bacarmalısınız"

Problemlərin qarşısı vaxtında alınmayanda ağır nəticələrə gətirib çıxardığını vurğulayan nazir müavini müşahidə etdikləri neqativ faktlarla bağlı məktəblinin dostlarının ata biləcəyi addımlara toxunub: "Problemlərin qarşısını vaxtında ala bilmək üçün məktəbdə şagirdin də, müəllimin də dostu olmağı bacarmalısınız. O zaman sizi dost kimi qəbul edəcək, hər hansı çətinlikləri ilə bağlı ürəklərini sizə açacaqlar. Sizdən qorxmamalı, sizi sevməlidirlər. Məktəblərdə mehribanlığı məhz siz yarada bilərsiniz".

"Məktəblinin dostu" layihəsinin məhz onların sayəsində uğur qazandığını vurğulayan F.Qurbanov bu layihə nəticəsində Azərbaycanın bir çox ölkələr üçün nümunəyə çevrildiyinə də diqqət çəkib: "Bir çox ölkələrdə oluram. Həyata keçirdiyimiz təhsil islahatlarından danışarkən "Məktəblinin dostu" layihəsinin əldə etdiyi nailiyyətlərlə bağlı məlumat verirəm. Hər dəfə bu layihəyə qarşı çox böyük maraq müşahidə edirəm. Ancaq bir çox ölkədə bu imkan yoxdur. Məsələn, bu gün ölkəmizdə məktəblinin 300 dostu fəaliyyət göstərir. Hər ölkənin büdcəsi buna imkan vermir. Odur ki, işinizin məsuliyyətini dərk edin. Sizin fəaliyyətiniz ölkə təhsili üçün olduqca önəmlidir. Biz sizə inanırıq, fəaliyyətinizi yüksək dəyərləndiririk. Hər birinizə fəaliyyətinizdə dəstək verməyə hazırıq və sizdən uğurlu nəticələr gözləyirik".

### Məktəblinin dostları tezliklə 150 məktəbdə

Qeyd edək ki, 2016-cı ilin dekabr ayından icrasına başlanılan "Məktəblinin dostu" layihəsi Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən birgə həyata keçirilir. Layihə Bakı şəhəri üzrə 58 tam orta məktəb, 2 gimnaziya, 2 internat və 2 idman məktəbi olmaqla ümumilikdə 64 ümumi təhsil müəssisəsini əhatə edib. Eləcə də Sumqayıtda 4, Abşeronda 2 ümumi təhsil müəssisəsində məktəblinin dostu fəaliyyət göstərir.

"Məktəblinin dostu" layihəsinin əsas məqsədi müəllim və şagirdlər üçün daha təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivi ilə maarifləndirmə və diaqnostik işlər aparmaqdır.

Layihənin əhatə etdiyi məktəblərin sayının 150-yə çatdırılması nəzərdə tutulur.

# “Hədəfimiz Azərbaycan elmini rəqabətqabiliyyətli etməkdir”



## Aliyə Ospanova: “Biz artıq əsas diqqətini yalnız tədrisə yönəltmiş bir universitet ola bilmərik”

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

*- “Elsevier Corporation” ilə əməkdaşlıq çərçivəsində ölkəmizin elm aləmindəki yerini daha da möhkəmləndirmək planlaşdırılır. Elsevier ilə tərəfdaşlıq bu sahədə hansı töhfələr verə bilər?*

- Elsevier bu gün ayrı-ayrı ölkələrdə və universitetlərdə elmin inkişaf səviyyəsinin müəyyənləşdirilməsində əsas rol oynayır. Bu təşəbbüsün bir hissəsi olaraq, korporasiyamız üçün Azərbaycanın əhəmiyyətini nəzərə alaraq, beynəlxalq elmi jurnallarda nəşrlərin və sitatların sayını artırmaqla Azərbaycan alimlərinin rəqabət qabiliyyətini yüksəltməyi planlaşdırırıq. Başqa sözlə, hədəfimiz Azərbaycan elmini rəqabətqabiliyyətli etməkdir.

*- Sənəddə qeyd edildiyi kimi, əsas məqsədlərdən biri yerli ali təhsil müəssisələrinin dünyanın nüfuzlu (“QS Dünya Universiteti sıralaması”, “The Financial Times”, “Shanghai Ranking” və s.) beynəlxalq reytinq siyahılarına daxil edilməsidir. Siz bizim ali məktəblərin reytinqlərdə mövqeyinin yaxşılaşması perspektivlərini necə qiymətləndirirsiniz? Elsevier bu işdə onlara kömək edə bilər?*

- Bütün bu sadalanan universitet reytinqlərinin hər birinin öz metodologiyası var, buna görə elmi potensial Scopus verilənlər bazasındakı nəşrlərin və ya sitatların sayı ilə ölçülür. Əlbəttə ki, Scopus-a giriş olmadan nəticələrin əldə edilməsini müntəzəm ölçmək və hətta reytinqə daxil olmaq barədə danışmaq çox çətin idi. Bu vacib razılaşmanın bir hissəsi olaraq, Elsevier nəinki elmi bazalardan istifadə vasitələrinə lazımi təminat verməklə yanaşı, həm də hər bir universitetdə diqqət mərkəzində olmaqla, genişmiqyaslı təlim keçirmək üçün öhdəlik götürüb. Elsevier ölkənin aparıcı ali təhsil müəssisələrindən olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin bazasında tədris mərkəzi yaradıb. Biz istəyirik ki, ölkənin hər bir universiteti, o cümlədən regionlardakı ali məktəblər bu sahədə maarifləndirici kursların keçirilməsi üzrə işlərini davam etdirsinlər.

### “Azərbaycanın elmi jurnallarının redaktorları üçün ustad dərsləri keçirməyi planlaşdırırıq”

*- Məlumdur ki, Scopus-da indeksləşmək istəyən jurnallar müəyyən meyarlara cavab verməlidir. Beynəlxalq elmi nəşrlərin sayının artırılmasına, elmi məqalə və jurnalların beynəlxalq tələblərə uyğunlaşdırılmasına necə nail olmaq olar?*

- Scopus dünyanın ən nüfuzlu elmi-analitik reytinq platformasıdır ki, bu da müəlliflərin, alimlərin, jurnalların, təşkilatların reytinqini, ölkələrin reytinqini tərtib etməyə imkan verir. Scopus-a necə daxil olmaq barədə danışsaq, yerinə yetirilməli olan əsas vəzifə elmi məqalə yazmaqdır. Reytinqdə inkişaf etmək üçün vacibdir ki, bu elmi məqalə kifayət qədər sitat qazansın, digər müəlliflər ona istinad, ondan bəhs etsinlər.

Milli bir elmi jurnalın Scopus-a girməsi hər bir ölkənin qürurudur. Layihəmizin bir hissəsi olaraq Scopus-un beynəlxalq tələblərinə uyğunluğunun öyrənilməsi məqsədi ilə Azərbaycanın elmi jurnallarının redaktorları üçün bir sıra ustad dərsləri keçirməyi planlaşdırırıq.

*- Elsevier-in Azərbaycanda universitet elminin inkişafına, ali məktəb alimlərinin nəşrlərdə fəallığının stimullaşdırılmasına dair müəyyən təklifləri varmı?*

- Düşünürəm ki, ilk növbədə universitetlər başa düşməlidirlər ki, hər hansı bir universitetin inkişaf etmiş tədqiqat potensialı olan bir müəssisəyə çevrilməsi zamanın tələbidir. Biz artıq əsas diqqətini yalnız tədrisə yönəltmiş bir universitet ola bilmərik. Bu, ilk növbədə, elmin inkişafına diqqət göstərən ali məktəb strategiyasının transformasiyasıdır. Prioritetlərin düzgün seçilməsi və əsas effektivlik göstəricilərinə (KPI - key performance indicators) nail olunduğu təqdirdə ali məktəbin göstəricilərinin yaxşılaşması qaçılmazdır.

### “Son 5 ildə Skopus-da Azərbaycan alimlərinin 6568 məqaləsi dərc edilib”

*- Scopus-a daxil olmaq üçün jurnallarımıza nələr lazımdır? Azərbaycan alimlərinin Scopus-dakı fəallığı barədə nə deyə bilərsiniz...*

- İlk növbədə, Scopus-a daxil olmaq üçün jurnalın beynəlxalq standartlara cavab verməli olduğunu başa düşmək lazımdır. Bu, həm məcburi texniki uyğunluq, həm ekspert rəyi və təbii ki, qəbul edilmiş nəşrlərin keyfiyyətidir. Düşünürəm ki, bu gün jurnalların statusunu müəyyənləşdirməklə Azərbaycan jurnallarının auditini aparmaq lazımdır.

*- Bir az da konkretləşdirsək, universitet alimlərimizin Skopus-dakı aktivliyi necədir?*

- Əlbəttə. Bəzi faktlara baxın: son 5 il ərzində Skopus-da Azərbaycan alimlərinin 6568 məqaləsi dərc edilib. Science direct-də nəşr olunan 1 məqalə Azərbaycan alimlərinə 10-a qədər sitat gətirir. Bu göstəriciyə əsasən ölkənin ən nüfuzlu ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti QS-in dünyanın ən yaxşı 1000 universiteti sırasında yer alıb.

- **“Azərbaycan alimlərinin rəqabət qabiliyyətini artırmağı planlaşdırırıq”.**
- **Əsas elmi məlumat bazalarına abunənin təşkil edilməsi ən vacib addımlardan biridir.**
- **Ali təhsil müəssisələrində elmin inkişaf etdirilməsi zəruridir, hazırda universitetlərin elmi potensialını artırmaq üçün bir sıra təkliflər hazırlayırıq.**
- **Science direct-də nəşr olunan 1 məqalə Azərbaycan alimlərinə 10-a qədər sitat gətirir. Bu göstəriciyə əsasən ölkənin ən nüfuzlu ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti QS-in dünyanın ən yaxşı 1000 universiteti sırasında yer alıb.**
- **Azərbaycan Respublikası Təhsil Nazirliyi və Elsevier korporasiyası arasında əldə olunmuş razılaşma ölkənin III və IV nəsil universitetlərinin transformasiyası üzrə bütün akademik ictimaiyyət üçün ciddi bir təkan olacaq.**

### “Scopus-da dərc olunmaq üçün pul ödəməyə ehtiyac yoxdur”

*- Bəzən Elsevier bazasına daxil olan jurnallarda, eləcə də digər nüfuzlu nəşrlərdə publikasiya məsələsindən danışanda çoxları bunun ödənişli olduğunu iddia edir...*

- Doğrudur, təəssüf ki, bir çox alimlər səhvən belə hesab edirlər. Əslində isə, Scopus-un indeksli jurnallarında dərc olunmaq üçün kiməsə pul ödəməyə ehtiyac yoxdur. Üstəlik, Skopus jurnalı heç vaxt müəyyən bir məbləğ qarşılığında məqalənin çap olunacağına zəmanət vermir.

Ancaq, yenə də təəssüflər olsun ki, bir çox alimlər hələ də elmi məqalələrinin dərc olunması üçün bəzi şirkətlərdən istifadə etmək lazım olduğuna və yalnız bu yolla Skopusa daxil ola bilməyin mümkünlüyünə inanırlar. Sizin etməli olduğunuz əsas iş bütün beynəlxalq standartlara uyğun olan bir məqalə yazmaq və onu onlayn olaraq jurnalın veb səhifəsinə şəxsən təqdim etməyinizdir.

*- Skopus-da alimlərin ən çox hansı sahələrdə elmi məqalələrinin dərc olunması barədə danışa bilərik?*

- Bu barədə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 2014-2019-cu illər üzrə alim və tədqiqatçıların publikasiya fəallığına dair hesabatından mühüm nəticələri qeyd edə bilərik. Bəhs etdiyimiz dövrdə OECD üzrə alimlərin təbiət elmləri üzrə publikasiya aktivliyi 55,1 faiz, mühəndislik və texnologiyalar üzrə 25,7 faiz, tibb elmləri üzrə 10,7 faiz, sosial elmlər üzrə 5,1 faiz, digər elm sahələri üzrə isə 3,4 faiz təşkil edib. Beləliklə də alimlərin təbiət elmləri sahəsində publikasiya aktivliyinin daha yüksək olmasını qeyd edə bilərik.




### “Universitetlərin elmi potensialını artırmaq üçün bir sıra təkliflər hazırlayırıq”

*- Elmi nəşrlərin fəallığı baxımından universitet və akademik elmin inteqrasiyasının gücləndirilməsi barədə nə deyə bilərsiniz?*

- Məlumdur ki, bütün dünyada alimlərin fəaliyyətinin nəticələri və elmi göstəriciləri onların yüksək reytinqli jurnallarda dərc olunan məqalələri və digər tədqiqatçıların onlara olan istinadlarının sayı ilə ölçülür. Buna görə də ali təhsil müəssisələrində elmin inkişaf etdirilməsi zəruridir, hazırda universitetlərin elmi potensialını artırmaq üçün bir sıra təkliflər hazırlayırıq.

*- Elsevier-in Azərbaycanda universitet elminin inkişafı ilə bağlı müəyyən strateji təklifləri varmı?*

- Əsas elmi məlumat bazalarına abunənin təşkil edilməsi ən vacib addımlardan biridir. Təhsil Nazirliyi tərəfindən yalnız Scopus-a (elmi və analitik reytinq platforması) deyil, həm də Science Direct-ə (dünyada ən yüksək impakt faktoru olan elmi jurnallar) girişin təmin olunması çox əhəmiyyətlidir. Science Direct 196 Nobel mükafatçısından 195-nin dərc olunduğu dünyanın ən çox istinad edilən nəşridir. Science Direct platformasında azərbaycanlı alimlərin nəşrlərinin sayını artırmaq lazımdır.

*- Elsevier-in Azərbaycanla qarşılıqlı əlaqəsini necə qiymətləndirirsiniz? Azərbaycanın Elsevier ilə gələcək əməkdaşlıq perspektivləri necədir ?*

- Hesab edirəm ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Elsevier korporasiyası arasında əldə olunmuş razılaşma ölkənin III və IV nəsil universitetlərinin transformasiyası üzrə bütün akademik ictimaiyyət üçün ciddi bir təkan olacaq.

# Müəllimin sosial statusunu artırmaq lazımdır



## Rusiyada qanun layihəsi hazırlanır

**Oruc MUSTAFAYEV**

“Uçitelskaya qazeta”nın redaksiyasında müəllimlərin statusu haqqında federal qanunun hazırlanmasına həsr olunan “dəyirmi masa” keçirilib. Rusiyanın adıçəkilən qəzeti məktəblərdə zorakılıqla bağlı növbəti qalmaqallardan sonra belə bir təşəbbüslə çıxış edib.

“Təəssüf ki, bütün ölkə üzrə müəllimlərə qarşı təhqirlər və hücumlar çoxalıb. Buna görə də təsadüfi deyil ki, bütün pedaqoji ictimaiyyət müəllimlərin müdafiəsi ilə bağlı təşəbbüsümüzlə həmrəy olub”, - deyə “Uçitelskaya qazeta”nın baş redaktoru Arslan Xasavov bildirib.

Ümumrusiya Təhsil Həmkarlar İttifaqı və Dövlət Dumasının Təhsil Komitəsi sənədin qəbul edilməsində maraqlı olduqlarını bildirib və öz təkliflərini hazırlayıb. Belə ki, həmkarlar ittifaqı qanunvericiliyin dəyişdirilməsi üçün variantlar hazırlayıb və müəllimin peşə fəaliyyəti zamanı təhqir edilməsinə görə fiziki şəxslər üçün 4-5 min, vəzifəli şəxslər üçün 40-50 min və hüquqi şəxslər üçün 100-150 min rubl məbləğində inzibati cərimənin tətbiqini təklif edib.

Moskvadakı 1520 nömrəli məktəbin direktoru Vita Kiriçenko qeyd edib ki, bu cür problemlər xarici ölkələrdə də mövcuddur: “Məsələn, 2018-ci ildə ABŞ-da müəllim peşəsindən uzaqlaşanların sayı əvvəlki 5 ildəkindən çox olub.

Oxşar vəziyyət Böyük Britaniyada da var. Müəllimin statusunun müzakirəsi vaxtı başqa ölkələrin təcrübəsini də nəzərə almaq lazımdır. Ümumiyyətlə, hesab edirəm ki, bu gün ailə və məktəb danışıqlar stolu ətrafında birləşməlidir. Bu sahədə lazımi normativ baza artıq mövcuddur, sadəcə pedaqoqların dəstəklənməsi üzrə əlavə tədbirlərlə bağlı qərar qəbul etmək lazımdır”.

Rusiya Federasiya Şurasının Elm, Təhsil və Mədəniyyət Komitəsi sədrinin müavini Viktor Smirnovun sözlərinə görə, məsələ yalnız qanunvericilik aktları ilə həll edilə bilməz: “Müəllimin sosial statusunu artırmaq lazımdır, cəmiyyətin təhsilə ehtiyacı var”.

“Dəyirmi masa”da iştirak edənlərin fikirləri birmənalı olmayıb. Bəziləri müəllimin statusunun cərimələrlə qaldırıla bilməyəcəyini, bəziləri müəllimin hər zaman haqlı olmadığına inandığını söyləyib, digərləri isə ümumiyyətlə, təhsildə sivil fəaliyyət haqqında düşünməyi təklif ediblər.

A.Xasavov bütün fikirlərin nəzərə alınacağını, “dəyirmi masa”da qaldırılan problemlərin həllinə yönəldiləcək qanun və ya qanunvericilik aktının qəbul edilməsi üçün bir yol xəritəsi hazırlanacağını vəd edib. O, Qazaxıstanda oxşar qanunun artıq qəbul edildiyini xatırladıb.

Qeyd edək ki, Rusiyada “Müəllim statusu haqqında” qanun yalnız ölkənin Ulyanovsk vilayətində qüvvədədir.

# İnklüziv təhsil onların həyatını dəyişir

## Sağlamlıq imkanları məhdud olan şəxslərin arzularla dolu böyük dünyasından reportaj





⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Belə ki, həmin uşaqlar onlara aid qapalı dünyadan qopub cəmiyyətə inteqrasiya olunub və kollektivin bərabərhüquqlu fərdinə çevriliblər. Onlarda özünə inam hissi formalaşıb. Artıq belə uşaqlar asanlıqla ünsiyyət qurur, müstəqil əmək fəaliyyəti ilə məşğul olmağa başlayırlar”.

5 nömrəli Bakı Peşə Liseyinin bu prosesin fəal iştirakçısı olması təhsil müəssisəsinin kollektivi üçün maraqlı və əvəzsiz təcrübədir: “Tələbələrimizi heç vaxt kateqoriyalara bölmürük. Qəbul olub gələn hər bir tələbə bərabərhüquqludur. Göründüyü kimi, sağlamlıq imkanları məhdud tələbələri digər tələbələrlə birgə təhsilə cəlb edirik. Bələliklə də müəllimlərlə yanaşı, tələbə yoldaşlarının da onlara dərslərində kömək etməsinə nail oluruq. Lazım gəldikdə, müəllimlərimiz onlarla fərdi qaydada məşğul olur. Psixoloqumuz daim həmin tələbələrin yanındadır. Biz heç bir tələbəmizi ayırmırıq və səmimi ortam yaratmağa çalışırıq”.

Tələbələrinin sosiallaşmasına, müxtəlif layihə və təlimlərdə iştirakına şərait yaradan müəssisənin tələbələrinin bəziləri - Zeynəb Cəfərzadə, Aysu Məmmədli, Fərid Cavadov Heydər Əliyev Fondu tərəfindən təsis olunmuş “İçərişəhər ənənəvi İncəsənət Mərkəzi”ndə fəaliyyət göstərən dərnəklərə cəlb olunub. Tələbələr həftədə bir gün 5 fərqli istiqamət - keramika, batika, zərgərlik, taxta və dekorativ rəngkarlıq nümunələri üzrə fəaliyyət göstərən dərnəklərdə məşğul olurlar”.

Zibaxanım müəllim onu da əlavə edir ki, inklüziv təhsilə cəlb edilən tələbələrin bəziləri ödənişli əsaslarla kurslara qəbul olunsalar da, mövcud qanunvericiliyə əsasən təhsil haqqından azaddırlar.

### Həyatı rəngbərəng muncuqlarla rəngləndirib, qayçı və daraqla “səliqəyə salırlar”

Bələliklə, sağlamlıq imkanları məhdud olanların arzu dolu böyük dünyasına biz də daxil oluruq. Onlar artıq uşaq deyil. Böyüyüblər. Hər biri bir işin qulpundan yapışıb ikiəlli həyata sarılıblar. Bir qrupunun həyata iynə-sapla sırındığı, başqa bir qrupun rəngbərəng muncuqlarla dünyasını rəngləndirdiklərini, dağınıq dünyada qayçı-daraqla səliqə-səhman yaratmağa çalışdıqlarını görmək maraqlı olduğu qədər, həm də kövrək duyğularla doludur. Ayxan Əliyev, Həsən Hüseynzadə, İsmayıl İsmayılov, Əli Babayev, Gülgün Həsənzadə, Zeynəb Əsgərova, Zeynəb Cəfərzadə, Cəmilə Məmmədəliyeva, Ləman və Sevil Məmmədovalar 5 nömrəli Bakı Peşə Liseyinin tələbələridir. Bu gün bu gəncləri birləşdirən birgə təhsil aldıqları təhsil müəssisəsində sabah üçün çox önəmli olan bir şey, onları bir çoxlarından fərqləndirəcək aşpaz, bərbər, dərzi, kompüter operatoru, əməliyyatçı mühasib kimi ixtisaslar üzrə bacarıqlar aşılanır.

### Rəqəmlərin sehrinə düşən tələbə

1999-cu ildə doğulub. Özü də anadangəlmə serebral iflicə. Təbii ki, bu da bütün həyatına təsir edib. Bəzi məqamlarda məhdudlaşdırmalara, maneələrə səbəb olub. Ancaq sağlamlığı qarşısındakı bu əngəl təhsilinə manea təşkil edə bilməyib. Həsən də məktəbə gedib, parta arxasında oturub, tay-tuşları ilə birgə təhsil almaq hüququndan istifadə edib. 2014-cü ildə orta məktəbi bitirdikdən sonra kompüter operatoru, veb dizayner ixtisasına yiyələnib. Ancaq bununla kifayətlənməyib. Bu dəfə başqa bir peşəyə maraq göstərib. Daim yeniliklərə can atdığından bu dəfə “Əməliyyatçı-mühasib” peşəsini öyrənmək istəyib. Deyəsən, artıq axtarışları nəticə verib. İndi özünü gördüyü yerdədir 5 nömrəli Bakı Peşə Liseyinin tələbəsi Həsən Hüseynzadə. Özünü rəqəmlərin sehirli dünyasına düşmüş kimi hiss edir: “Peşəmə qarşı yüksək dərəcədə sevgi duyuram. Bu ixtisasla məşğul olanda ruhən rahatlanıram”.

Bir ixtisasda, bir peşədə özünü tapmaq buna deyirlər, yəqin ki. Çünki bu peşəyə yiyələnməklə bağlı qərar verənə qədər hətta dil öyrənmək həvəsi də olub: “British Council və Təhsil Nazirliyinin həyata keçirdiyi layihə üzrə 9 ay ingilis dili kursunda təhsil aldım”.

İngiliscə təhsil aldığı həmin müddətdə düşüncələrində bu peşə özünə yer eləməyə başlayıb. Anlayıb ki, həyatını əməliyyatçı-mühasib olaraq davam etdirmək, bu işlə məşğul olmaq, hər gün rəqəmlərin içində olmaq, bu peşə ilə qırılmaz bağlarla bağlanmaq istəyir. Bu istək də onu 5 nömrəli Bakı Peşə Liseyinə gətirib: “2019-cu ildə sənədlərimi təqdim edib müsabiqədə iştirak etdim. Artıq oxuyuram. “Əməliyyatçı-mühasib” ixtisası indi mənim üçün uzaq xəyal deyil, əksinə, hələ təhsilimi tamamlamamağıma baxmayaraq, artıq reallıqdır. Belə ki, hələ istehsalat təcrübəsindəykən məni “Port Baku” şirkətinə iş görüşməsinə dəvət etdilər. İndi orada qrafik-dizayner və marketinq sahəsi üzrə həm təcrübə keçirəm, həm işləyirəm”.

### “Münasibətlərimizdə sevgi, qayğı, hörmət qarşılıqlıdır”

Həsənin sağlamlığındakı problem onun üçün maneə deyil. O, bununla yaşamağı çoxdan öyrənib. Öyrəndiyi başqa şeylər də var: “Mənə, ümumiyyətlə, ölkəmin hər vətəndaşına verilən təhsil imkanlarından istifadə etdim. Orta təhsilimi tamamladım. İndi isə peşə təhsili alıram. Özümü heç kimdən fərqli hiss etmirəm. Müəllim və tələbə yoldaşlarımın mənə olan münasibətindən də razıyam. Onlar məni çox dəyişdirdilər. Əvvəllər qapalıydım, insanlarla ünsiyyətə can atmırdım, əksinə hamıdan qaçırdım. 5 nömrəli Bakı Peşə Liseyinə daxil olduqdan sonra müəllim və tələbələrin dəstəyi ilə bu xüsusiyyətim dəyişdi. İndi nəinki ünsiyyətdən qaçır, hətta ehtiyacı olanlara kömək etməyə çalışıram. Kompüter biliklərimi həm tələbə yoldaşlarımla, həm də müəllimlərimlə bölüşürəm. Kiminsə kompüterində problem çıxırsa, bir çətinliyi yaranırsa, dərhal kömək edirəm. Onlar da mənə qayğı və hörmətlə yanaşırlar. Yəni, münasibətlərimizdə sevgi, qayğı, hörmət qarşılıqlıdır”.

Bu amillərin önəmini Həsənin anası Səadət Məmmədova da vurğulayır. Həsənin dünyaya gəlişi və ondan sonra qarşılaşdığı xəstəliklərlə mübarizəsini xatırladaraq, istər özünün, istərsə də Həsənin bu problemlərin öhdəsindən mətanətlə gəlməsində cəmiyyətin rolunu qeyd edir: “Həsən doğulanda vəziyyəti çox ağır idi. 15 gün xəstəxanada qaldıq. Ona serebral iflic (sol əlin patologiyası) diaqnozu qoyanda dünya başımıza fırlandı. Bu xəbərə alışmaq elə asan olmamışdı. Əlindən əməliyyat etdirdik. Bu zərbədən hələ özümüzə gəlməmişdik, ikinci zərbəni aldıq. Həsən 8 yaşında epilepsiya keçirdi. Bir müddət Bakıda, sonra Sankt-Peterburqda müalicə aldı. Gələn bələnın fəsadını bacardığımız qədər azalda bildik. İndi ikinci qrup əlildir. Həsən kimi uşaqların, gənclərin qayğıya, sevgiyə ehtiyacı var. Onların rahat şəkildə cəmiyyətə adaptasiyası üçün dövlətin dəstəyi kifayət qədər böyükdür. Bu baxımdan həm oğlumun təhsil aldığı 5 nömrəli Bakı Peşə Liseyinin, həm digər təhsil müəssisələrinin, müəllim və tələbə kollektivinin əməyini yüksək qiymətləndirirəm. Uşaqların təhsil alması üçün hər cür imkan yaradılıb. Ancaq bunun üçün insanlar da anlayışlı, diqqətli olmalıdırlar. Sağlamlıq imkanlara baxıb ətrafımızdakı insanları özümüzdən kənarlaşdırmamalıyıq. Bu məsələdə insanlar mühitin rolunun nə qədər böyük olduğunu unutmamalıdırlar”.

### İynə-sapla həyata sarıldılar

Serebral iflicə uşaqlıqdan tanış olan sadəcə Həsən deyil. Zeynəb Cəfərzadə də bu xəstəlik ilə doğulub. Ancaq onun üçün də bir xəstəlik bu həyatda sahib olmaq istədikləri üçün əngəl sayılmaz. Zeynəb artıq III kurs tələbəsidir. Tezliklə sevdiyi, seçdiyi sənətə yiyələnən “dərzi Zeynəb” kimi tanınacaq: “Paltarlara qaş düzməyi, onları muncuqlarla bəzəməyi çox sevirəm. Anam da bu həvəsimi nəzərə alıb mənə burada təhsil almağı tövsiyə etdi. Onun tövsiyəsinə uyduğuma görə özümü xoşbəxt hiss edirəm. Bir anda özümü səmimi bir mühitin içərisinə qaynayıb-qarışmış gördüm”.

Zeynəb kimi əlinə iynə-sap alanda bütün dərdlərini, problemlərini unudan bir qız da var. Adı Aysu Məmmədbəylidir. Autizmlidir. “Paltarlar üzərində muncuqlarla işləyirəm. Bu, çox gözəl işdir”, - deyir.

Gördüyü iş kimi Aysu özü də çox zərifdir. Onunla münasibətlərdə yoldaşları diqqətli olmağa çalışırlar. Yaxın dostu Xanım Süleymanova deyir ki, sakit, qapalı və çox duyğusal olan Aysu hisslərə çox önəm verir: “Mehriban olmaqla yanaşı, çox küsəyəndi və adi bir sözdən inciyir. Ona görə də onunla çox ehtiyatla davranırıq”.

### Kim nəyi yaxşı bilirsə o birinə kömək edir

İsmayıl İsmayılov, Əli Babayev, Gülgün Həsənzadə aşpaz olacaqlar. Bu işdən də çox məmnundurlar. Başqaları üçün qazan asıb, dadı damaqlarda qalacaq yemək bişirib şöhrət qazanmaq istəyirlər.

“Öz istəyimlə bu peşəyə yönəldim. Evdə vaxtımın çoxunu yemək bişirməklə keçirirəm. Ən çox makaron və kartof bişirməyi sevirəm. Uşaqlıqdan yemək bişirməyə həvəsim olduğu üçün bu sənəti daha dərindən öyrənmək qərarına gəldim” - deyən I kurs tələbəsi İsmayıl İsmayılov autizmli olmasına baxmayaraq, tələbə yoldaşlarıyla uğurla ayaqlaşır. Riyaziyyatda da bacarıqlı olduğunu deyən fənn müəllimi Nədanə Mansurovanın sözlərinə görə, bəzən çalışmaları başqalarından daha sürətlə yerinə yetirib başa çatdırır. Nizam-intizamlı tələbə kimi tanınan İsmayıl aşpaz olmağa tələsir.

Ərzulla Həmzəyev onunla bir kursda təhsil alan Əli və İsmayılla mehriban münasibətlər qurub. İnklüziv təhsilin əhəmiyyətini anlayan Ərzulla bu məsələdə tərəddüd edənlərlə qətiyyən razılaşmır: “Əli və İsmayılla mehriban, səmimi münasibətimiz var. Onlar səmimi qrup yoldaşı və əsl dostdurlar. Nə münasibətlərdə, nə təhsildə özümüzü biri-birimizdən ayrı təsəvvür etmirik. Məncə, hamımız fərqliyik. Ayrı-ayrı bədən quruluşumuz, müxtəlif xasiyyətlərimiz var. Hər kəs fərqlidir. Əsas odur ki, biz bir-birimizdə fərq, artıq-əksik heç nə axtarmırıq. Nə özümüzü başqalarından, nə də başqalarını özümüzdən üstün tuturuq. Kim nəyi yaxşı bilirsə, o birinə kömək edir. Beləliklə, həm həyatımızı asanlaşdırır, təhsilimizin keyfiyyətini artırırıq, həm də münasibətlərimizi möhkəmləndiririk. Əli ilə, İsmayılla bir kursda təhsil almaq nəinki təhsilimizə mane olur, əksinə kömək edir. Məsələn, İsmayıl rus dilini çox yaxşı bilir. Bu da bizim üçün əlavə üstünlükdür. Qrupumuzda rus dilini yaxşı bilən bir yoldaşımızın olması rus dilində qarşımıza çıxan çətin tapşırığı bizim üçün asanlaşdırır. Beləcə, İsmayılın köməyi ilə rus dilini öyrənirik”.

Ayxan Əliyev isə “Turizm agenti” ixtisası üzrə III kursda təhsil alır. Təhsil aldığı müəssisənin ictimai işlərində çox fəaldır. Tədbirlərin foto və video çəkilişlərini məhz o həyata keçirir. Bacarıqları bununla da məhdudlaşmır. Musiqi alətlərində ifa edir, hətta musiqi alətləri və səs cihazlarını tənzimləyir.

Uzun sözün qısası, “sağlamlıq imkanı məhdud” deyib keçməyin, hər birinin 10 barmağında 10 qabiliyyət var. Onlar da arzulayır, arzusunu məqsədə çevirir, hədəfi üçün mübarizə aparır. Bu mübarizədə biz də onların yanında olaq ki, hədəfə gedən yolda büdrəməsinlər.



# Yeni Peşə Təhsil Mərkəzinin təhsilalanları üçün təcrübə və iş imkanları

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin (SİBDPTM) rəhbər və mühəndis-pedaqoji heyəti təhsilalanlarla birlikdə təcrübə proqramı çərçivəsində yapon istehsalı olan “Toyota”, “Honda”, “Mazda”, “Mitsubishi” və “Subaru” avtomobil markalarının rəsmi satış və texniki xidmət mərkəzləri ilə yaxından tanış olub.

Nümayəndə heyətinə mərkəzlərin yüksək standartlara cavab verən maddi-texniki bazası, təcrübəli və ixtisaslı texniki kadrları ilə yaxından tanış olmaq imkanı yaradılıb. Mərkəzlərin texniki servis üzrə mütəxəssisləri təhsilalanlara servislərin imkanları haqqında ətraflı məlumat verib, əyani olaraq avadanlıqların iş prinsiplərini nümayiş etdiriblər.

Təcrübə proqramı çərçivəsində yapon istehsalı olan avtomobillərin mühərrikləri haqqında nəzəri və praktiki məşğələ təşkil olunub. Eyni zamanda təhsilalanlar təhsil aldıqları müddət ərzində nəzəri və praktik təlimlərdən qazandıqları bilik və bacarıqlarını əyani nümayiş etdirmək imkanı əldə ediblər.

Bununla yanaşı, Təhsil Mərkəzinin nümayəndə heyəti avtomobillərin geniş model sırası və təklif olunan keyfiyyətli texniki servisi, orijinal ehtiyat hissələrinin və aksessuarların təchizatı ilə tanış olublar.

Sonda təcrübə proqramından yararlanacaq təhsilalanlar üçün şirkət tərəfindən seçim meyarları müəyyən edilib. Proqram əsasında təşkil olunacaq məşğələlərin məzmunu, mentorlar və texniki şöbələr təyin olunub. Bununla da təhsil müddəti ərzində yüksək nəticə göstərən təhsilalanlar iş imkanlarından yararlana biləcəklər.

Həmçinin, Mərkəzdə avtomobil ixtisası üzrə ixtisas təkmilləşdirilməsi məqsədilə birgə kursların təşkil edilməsi müzakirə olunub.

# Fövqəladə hallarla bağlı maarifləndirmə

**R.AĞAYEV**

Təhsil və Fövqəladə Hallar nazirliklərinin birgə təşəbbüsü və Qubadlı Rayon Təhsil Şöbəsinin və Sumqayıt Dövlət Yanğından Mühafizə İdarəsinin təşkilatcığı ilə rayonun C.Həşimov adına Mərdanlı kənd tam orta məktəbində yanğın təhlükəsizliyinə dair təlim keçirilib.

Əvvəlcə təhlükəsizlik qaydalarını əks etdirən sərgiyə baxılıb, videoçarxlar nümayiş olunub, daha sonra fövqəladə hadisələrdən qorunmaq üsulları, belə hadisələr zamanı davranış qaydaları, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə, mülki müdafiə vasitələrinin idarə olunması üzrə bacarıqların təkmilləşdirilməsi ilə bağlı məlumatlar verilib. Həmçinin, xilasetmə alət və avadanlıqlardan istifadə qaydası əyani şəkildə izah edilib.

Sumqayıt Dövlət Yanğından Mühafizə İdarəsinin rəisi Tahir Quliyev təlimdə idarənin şəxsi heyəti və texnikasının iştirak etdiyini vurğulayaraq, məqsədin fövqəladə hadisə baş verdikdə təxliyyə zamanı təhlükəsizliyin təmin olunması, uşaqlara gərəkli biliklərin öyrədilməsi olduğunu bildirib.

Qubadlı Rayon Təhsil Şöbəsinin müdiri Fuad Bədəlov isə su mənbələrinin qorunması və işlək vəziyyətdə olması, təhsil müəssisəsinin ərazisinin daim təmiz saxlanmasının vacibliyini söyləyib.

Sumqayıt Dövlət Yanğından Mühafizə İdarəsinin inspektoru Qorxmaz Həsənov qeyd edib ki, binaların normativ sənədlərə uyğun ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməsi, yanğın zamanı insanların binadan köçürülməsi planlarının hazırlanması olduqca zəruridir.

Tədbirdə "Fövqəladə hallar zamanı özünü necə aparmalı?", "Fövqəladə hallarla bağlı davranış qaydaları” mövzularında çıxışlar edilib, şagirdlərə fövqəladə hal anlayışı, yanğın təhlükəsizliyi, təbii fəlakətlər, sel, daşqın, zəlzələ, meşə yanğınları, dəm qazından zəhərlənmənin profilaktikası, "112” qaynar xətti” və s. istiqamətlərdə bilgilər çatdırılıb.



Təlimdə şərti yanğın zamanı həyəcan siqnalı verildikdən sonra Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürən və təcili tibbi yardım dəstələri təlimatda nəzərdə tutulan müddətdə hadisə yerinə çatıb. Şərti yanğın baş verən məktəbdə təxliyyə planına uyğun olaraq, şagird və müəllimlərin təhlükəsiz yerə təxliyyəsi həyata keçirilib, sinif otaqlarında qalan məktəblilər xilas edilib, şərti xəsarət alan məktəblilərə ilkin tibbi yardım göstərilib.

Tədbirin sonunda Təhsil Nazirliyinin məsul əməkdaşı Rövşən Ağayev bildirib ki, məktəblərdə yanğından müdafiə, yanğın hadisəsinə qarşı hazırlıqlı olmaq hər zaman aktualdır və bu istiqamətdə maarifləndirmə böyük əhəmiyyət daşıyır.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 2377, **Sifariş** 643

**Məsul növbətçi:** O.Mustafayev


# Psixointellektual breyn-rinq oyununa start verilib

Paytaxtdakı ümumi təhsil müəssisələrinin şagirdləri arasında psixointellektual breyn-rinq oyununa start verilib.

Təlimə Dəstək Mərkəzi tərəfindən təşkil olunan oyunların əsas məqsədi məktəblilər arasında xüsusi hallarla bağlı məsələlərə və həssas qruplarla işə diqqəti artırmaq, müvafiq qrupa daxil olma ehtimalı olan şagirdlərin istedad və qabiliyyətini, dünyagörüşünü, intellektual səviyyəsini, müzakirə, təhliletmə, nitq, özünü təqdimetmə, kollektivi təmsiletmə bacarıqlarını inkişaf etdirməkdən ibarətdir.

Paytaxtın 12 inzibati rayonu üzrə keçirilməsi nəzərdə tutulan psixointellektual oyun rayon və şəhər turundan ibarətdir. Rayon turunda VII-IX sinif şagirdlərindən ibarət komandalar müəyyən vaxt ərzində onlara verilən müvafiq tapşırıqları yerinə yetirirlər. I mərhələdən uğurla keçən komandalar şəhər turuna vəsiqə qazanacaqlar.

Qalib gələn komandalara diplom və hədiyyələr təqdim olunacaq.

# Şəhidin xatirəsi anılıb



**Rəşad ZİYADOV**

“Vətənpərvərliyin ən ali məqamı - şəhidlikdir. Bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Qəhrəmanlıq bir anın bəhrəsi deyil. Xarakterin, tərbiyənin, mənəvi yaddaşın gücü ilə diktə olunan keyfiyyətdir. O, elə bir keyfiyyətdir ki, onun mahiyyətində təsadüf adlanan heç nə yoxdur”. Bu fikirlər fevralın 17-də Bakıdakı 258 nömrəli tam orta məktəbdə təhsil ocağının adını daşıyan Arif Vəliyevə həsr olunmuş anım tədbirində deyilib. Tədbirdə onun şərəfli ömrü və qəhrəmanlığından söhbət açılıb. Bildirilib ki, Arif Vəliyev torpağını qorumaq məqsədilə 1994-cü ildə döyüş bölgəsinə yollanır. O, Murov dağı yaxınlığında hakim yüksəkliyi uğrunda döyüşlərdə iştirak edir. Bu döyüş 3 gün, 3 gecə qarlı, çovğunlu bir havada olur. Havanın sərtliyi, yorğunluq, aclıq Arif və onun döyüş yoldaşlarını ruhdan salmır. Bu dəhşətli, odsaçan mərmilərin nişangah olduğu qanlı döyüş zamanı Arif əvvəl ayağından, sonra qolundan ağır yaralanır. Yaralı vəziyyətdə olsa da əsgər yoldaşının meyitini döyüş zonasından çıxarmağa çalışır. Bu anda ürəyindən düşmən gülləsinə tuş gəlir. Arif Vəliyev bu döyüşdə qəhrəmancasına həlak olur.

Tədbirdə qeyd olunub ki, hər bir Azərbaycan vətəndaşı öz milli qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox şeyləri öyrənməlidir. Torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək isə hər kəsin vətəndaşlıq borcudur.

Məktəbin direktoru Sədaqət Hüseynova məktəb kollektivi tərəfindən şəhid Arif Vəliyevin hər zaman hörmət və ehtiramla anıldığını, şagirdlərin milli vətənpərvərlik ruhunda tərbiyə olunması üçün ötən illər ərzində bütün imkanlardan istifadə olunduğunu bildirib. O, Qarabağ torpaqlarının mütləq geri qaytarılacağından, bu istiqamətdə dövlətin apardığı siyasətdən danışıb. Qeyd olunub ki, bu gün parta arxasında əyləşən hər bir şagird bilməlidir ki, Azərbaycan heç bir zaman torpaqlarını düşmənə bağışlamayacaq və geri qaytarılması üçün hər kəs ölümə belə getməyə hazır olmalıdır.

Milli vətənpərvərlik ruhunda hazırlanmış tədbirdə şagirdlər tərəfindən qəhrəman şəhidlərimiz haqqında şeirlər söylənilib, mahnılar oxunub, musiqilər səslənib.

# Etibarsız sayılır

**Şuşa rayon** 7 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əsədova Dənizə İntiqam qızına verilmiş B-123909 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci** tərəfindən 2019-cu ildə Həmzəyeva Jalə Faiq qızına verilmiş AA-119486 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2018-ci ildə Kazımov Seymur Aydın oğluna verilmiş C-067721 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti** tərəfindən 1993-cü ildə Əliyeva Gülşən Yavər qızına verilmiş TB-I-095328 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Dondarlı kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Bayramov Anar Rasim oğluna verilmiş B-263304 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Uzunboyad kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Nəsiri Oktay Əlixan oğluna verilmiş 163 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Şabran rayon** Çölquşçu kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Dadaşova Afaq Musa qızına verilmiş B-101597 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Əhmədova Ülkər Yusif qızına verilmiş B-041494 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 147 nömrəli Texniki Humanitar Liseyi 2009-cu ildə bitirmiş Mustafayev Elvin Hidayət oğluna verilmiş BN-603758 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Meşəli kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş İmanov Emin Canpolad oğluna verilmiş A-150763 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Mehdiabad qəsəbəsi 2 nömrəli orta məktəbi 2012-ci ildə bitirmiş Aydınlı Kamran Elşad oğluna verilmiş A-122273 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 184 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Məmmədrzayev İzzət Ağaverdi oğluna verilmiş E-202766 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Sabirabad kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Nağıyev Araz Əlisa oğluna verilmiş 249271 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Kəngərli kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Qasımlı Süleyman Babək oğluna verilmiş A-481549 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2011-ci ildə Abbasova Lamiyə Hüseyn qızına verilmiş BB-I-019134 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 63 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Xıdırova Maya Qafar qızına verilmiş A-052334 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsz sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2015-ci ildə Balaylı Şahbaz Hüseyn oğluna verilmiş A-067312 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər 200 nömrəli Məktəb-Lisey Kompleksini** 2014-cü ildə bitirmiş Əkbərov Elvin Məmməd oğluna verilmiş A-293903 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Məktəbi** tərəfindən 1991-ci ildə Babayeva Ulduz Heydər qızına verilmiş PT-I-090980 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kirovabad “Avtomexanika” Texnikumu** tərəfindən 1992-ci ildə Məmmədov Natiq İbadulla oğluna verilmiş PT-I-107177 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 39 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Mustafayev Vüsal Tələt oğluna verilmiş A-344808 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Mustafayeva Ayla Qismət qızına verilmiş A-307701 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2017-ci ildə Əliyev Elnur Elxan oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 267 nömrəli məktəb-liseyi 2012-ci ildə bitirmiş Əhmədli Əli Araz oğluna verilmiş A-113415 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Culfa rayon** Göydərə kənd tam orta məktəbini 1997-ci ildə bitirmiş Quliyeva Süsənbər İbrahimxəlil qızına verilmiş 036353 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 106 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Yusifli Ülvi İlqar oğluna verilmiş A-308467 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2006-cı ildə Qulamova Xanım Ərəstun qızına verilmiş BB-II-035097 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu** tərəfindən 2012-ci ildə Şahbazova Xanım Ərəstun qızına verilmiş YB-016086 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2007-ci ildə Əliyev Rəşad Tapdıq oğluna verilmiş B-093794 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 20 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Rzayeva Mənzər Kərim qızına verilmiş A-383373 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Texniki-Humanitar Liseyi** 2015-ci ildə bitirmiş Popov Vladislav Mixailoviçə verilmiş A-401750 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qızlar Universiteti** tərəfindən 2016-cı ildə Cəfərova Fəridə Mehman qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2017-ci ildə Həsənov Nicat Şükür oğluna verilmiş magistr tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Qafur Məmmədov** adına Bakı Dəniz Yolları Məktəbi tərəfindən 1995-ci ildə İsmayılov Əli Yuriyeviçə verilmiş HT-791829 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1982-ci ildə Yarkov Nikolay Aleksandroviçə verilmiş ИВ-028679 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 4 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Mehtiyev Rasim Nizami oğluna verilmiş 132476 nömrəli attestat itdiyi üçün etibarsız sayılır..

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Abdulla Xəyyam Cəlil oğluna verilmiş AN-515670 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 49 nömrəli “İntellekt” məktəb-liseyi 1994-cü ildə bitirmiş Verdiyeva Lamiyə Barat qızına verilmiş A-107776 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Əndəmic kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Məmmədov Rüfət Hüseyn oğluna verilmiş AN-744360 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Axundova Aysel Ələkbər qızına verilmiş B-428259 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən rayon** Gil-Gilçay stansiya ümumi orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Talıbova Zahirə Əlixan qızına (Cavadova Zahirə Talıb) verilmiş B-585982 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Cavad adına şəhər tam orta məktəbin VIII sinfini 1979-cu ildə bitirmiş Cabbarova Şükufə Yunis qızına verilmiş 715083 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** S.Əliyev adına Ağlavaşlı kənd məktəbi (əvvəlki Qasım İsmayılov adına) 1991-ci ildə bitirmiş İsmayılova Ruhiyyə Hüseyn qızına verilmiş A-764826 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Gərmətük qəsəbə tam orta məktəbi 1978-ci ildə bitirmiş Aslanova (Abdullayeva) Nazirə Nüsrət qızına verilmiş A-145979 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2018-ci ildə Aslanlı Nəzri Düşəri qızına verilmiş A-149627 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2018-ci ildə Məhərrəmov Samir Müşviq oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Quliyev Rövşən Ələkbər oğluna verilmiş B-020376 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** Texniki Fənlər Təmayüllü İnternat tipli məktəb-liseyi 1995-ci ildə bitirmiş Məhərrəmov Rəfail Tofiq oğluna verilmiş A-569 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** Nizami adına 1 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Osmanov Nurlan Namiq oğluna verilmiş E-119644 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Məlikçobanlı kənd tam orta məktəbini 1996-cı ildə bitirmiş Ağayeva Gülnarə Vasif qızına verilmiş A-035186 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Həmyəli kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Xudiyeva (Ömərova) Simuzər Ayədxan qızına verilmiş A-065485 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 192 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Orucov Turan Elxan oğluna verilmiş A-099959 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2019-cu ildə Orucov Turan Elxan oğluna verilmiş AA-127500 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad Rayon Təhsil Şöbəsi** tərəfindən 2014-cü ildə Yadullayev Sidqəli Mürşüd oğluna verilmiş 004558 nömrəli əmək veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** M.Füzuli adına şəhər tam orta məktəbi 1999-cu ildə bitirmiş Hüseynova Vüsalə Eldar qızına verilmiş A-349992 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Aşağı Daşarx kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş İsmayılov Şahin Həmid oğluna verilmiş A-748634 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci** tərəfindən 2010-cu ildə Əzizov Pərviz Nadir oğluna verilmiş 73k-678 nömrəli sertifikat itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi İ.Əfəndiyev adına Elitar gimnaziyanın direktoru Sevda Quliyevaya anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Heydər Əliyev adına Liseyin direktoru Sevinc Orucova, Bakı şəhəri 52 nömrəli tam orta məktəbin direktoru Elmira Ələsgərova Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Ümumi təhsil sektorunun müdiri Fuad Babayevə qayınanası

**NİGAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 219 nömrəli evdə təhsil tam orta məktəbin pedaqoji kollektivi keçmiş direktor Sədaqət Məmmədovaya həyat yoldaşı

**PAŞA MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 219 nömrəli evdə təhsil tam orta məktəbin pedaqoji kollektivi Azərbaycan dili və ədəbiyyat müəllimi

**KƏMALƏ İBRAHİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

# AzMİU-da Karyera sərgisi

Fevralın 20-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) tələbələrin məşğulluğunu artırmaq məqsədi ilə növbəti dəfə tələbə və məzunlar üçün Karyera sərgisi təşkil olunub. Sərgidə nazirliklər, dövlət qurumları, komitə və təşkilatlar, müəssisələr, eləcə də universitetlə əməkdaşlıq edən ölkələrin qabaqcıl şirkətlərinin nümayəndələri iştirak ediblər.

Tələbələrinin keyfiyyətli təhsil almalarını təmin etməklə yanaşı, onların ixtisasları üzrə uğurlu karyera qurmaları üçün də köməklik göstərən universitet rəhbərliyinin təşəbbüsü ilə 90-dan çox dövlət qurumu, özəl şirkət, müəssisə, tələbə və məzunlara müxtəlif vakansiyalar üzrə ümumilikdə, 100-dən çox iş yerləri təklif edilib.

Qeyd edək ki, sərgiyə ölkənin aparıcı şirkətlərindən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, BP Azərbaycan, Kapital Bank, Beynəlxalq Bank, Paşa İnşaat, North West Construction MMC, PMD Projects, Akkord STİK, Holcim Azərbaycan, İmprotex İndustries MMC, Embawood MMC, eləcə də digər dövlət və özəl şirkətlərdəki vakant iş yerləri çıxarılıb.

Universitetin rektoru, professor Gülçöhrə Məmmədova Karyera sərgisinin əhəmiyyətinə toxunaraq bildirib ki, sərgi tələbə və məzunların karyera imkanlarını artırmaq, məşğulluqlarını inkişaf etdirmək, əmək bazarında fəaliyyət göstərən, ixtisaslarına uyğun şirkətlərlə əlaqə yaratmaq və real iş imkanlarından yararlanmaq məqsədi ilə təşkil olunub. O, AzMİU-da artıq ikinci dəfə keçirilən bu sərginin tələbə və məzunlara karyera yolunda ilkin addımlarını atmaqda böyük dəstək verəcəyini vurğulayıb. Rektorun sözlərinə görə, bu cür sərgilər gənclərlə şirkətlər arasında gərəkli körpü yaradır.

Daha sonra G.Məmmədova sərgidə nümayiş olunan stendləri gəzib, şirkətlərin nümayəndələri ilə ünsiyyətdə olub və vakansiyalarla maraqlanıb.



1500-dən çox tələbə və məzunun iştirak etdiyi sərgi böyük maraqla qarşılanıb. Sərgidə şirkət nümayəndələri təmsil olunduqları müəssisələrdəki vakansiyalar haqqında tələbələrə ətraflı məlumat verib. Xüsusilə iş axtarışında olan 4-cü kurs tələbələri bu sərginin onlar üçün çox vacib olduğunu, iş yeri tapmaq probleminin həllinə yardım edəcəyini bildiriblər. Sərginin gedişində iş axtarışında olan gənclər şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə ünsiyyət yaradıb, şirkət nümayəndələrinə özlərinə uyğun vakansiyalar üzrə CV-lərini təqdim ediblər.

Qeyd edək ki, Karyera sərgisində müxtəlif şirkətlərin təmsilçiləri də potensial kadrlar seçmək imkanı əldə ediblər. Onlar tələbələrin vakant yerlərə maraq göstərdiklərini, şirkətlərin fəaliyyəti ilə tanış olduqlarını yaxşı hal kimi dəyərləndiriblər.

# BSU-da üçtərəfli əməkdaşlıq haqqında müqavilə imzalanıb

Bakı Slavyan Universitetinin (BSU) rektoru, professor Nurlana Əliyeva Ukraynanın paytaxtı Kiyev şəhərində fəaliyyət göstərən 323 saylı Beynəlxalq Münasibətlər Gimnaziyasının direktoru Alla Jukova ilə görüşüb.

Görüşdə BSU-nun tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov, elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov, Ukrayna Tədris-Mədəniyyət Mərkəzinin müdiri Lesya Kərimova, Azərbaycanda Ukrayna Konqresinin İdarə Heyətinin sədri Yuri Osadçenko iştirak ediblər.

Görüşdə BSU ilə Beynəlxalq Münasibətlər Gimnaziyası və Yaroslav Mudrı adına Beynəlxalq Xeyriyyə Fondu arasında elm və təhsil sahəsində üçtərəfli əməkdaşlıq haqqında müqavilə imzalanıb.

Müqavilənin imzalanmasında məqsəd üçtərəfli münasibətlərin inkişafı, Azərbaycanda Ukrayna dili, mədəniyyəti, ədəbiyyatı, tarixi və ənənələrini tanıtmaq, ortaq tədris və mədəniyyət layihə və proqramlarının həyata keçirilməsi, istedadlı tələbə və gənclərə dəstək verilməsi, tələbə və müəllim heyətinin mübadiləsini reallaşdırmaqdır.

Müqavilədə Ukrayna mədəniyyətinin Azərbaycan, Azərbaycan mədəniyyətinin isə Ukrayna ərazisində tanıdılması, pedaqoji sahədə təcrübənin mübadiləsi, tərəflərin seminarlar, konfranslar, "dəyirmi masa"larda iştirakı, beynəlxalq tədris və innovasiyalar sahəsində bacarıqların öyrənilməsi məqsədilə nümayəndə heyətlərinin ezam edilməsi, hər iki ölkənin tarix və mədəniyyəti ilə tanışlıq, əməkdaşlıq çərçivəsində Azərbaycanın və Ukraynanın istedadlı gənclərinə dəstək verilməsi, eləcə də təhsil və mədəniyyət sahəsində digər fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulub.

Rektor N.Əliyeva əməkdaşlıq haqqında imzalanan bu müqavilənin bütün tərəflər üçün faydalı olacağına əminliyini bildirib.

# "Özünü STEAM-da tap"

## İsraildən qayıdan müəllimlərimizin təəssüratları

**Oruc MUSTAFAYEV**

Yeni tədris ilinin ilk günlərindən ölkəmizin təhsil sistemində bütün dünyada geniş yayılan STEAM yanaşma əsaslı təlimin tətbiqinə başlanıldı. Qısa vaxt ərzində təhsilimizdə innovativliyi və kreativliyi ilə təsdiqini tapan təlimin məktəblərimizdə uğurlu tədrisinə nail olmaq üçün müəllimlərimiz İsraildə təlim təcrübəsində olublar. Təlim təcrübəsi müəllimlərə nə verdi? STEAM təliminə qoşulmuş və İsraildə təlim keçmiş müəllimlərimizin deməyə sözü çoxdur. Özlərini STEAM-da tapan, təsdiqləyən müəllimlərimiz "Azərbaycan müəllimi"nə verdikləri qısa müsahibələrdə səfər təəssüratlarını bölüşüblər.



Mələk Hacıyeva



Gültəkin Abuşova



Rəhimə Əşrəfova

### "Layihədə özümü gördüm"

*Mələk Hacıyeva, Bərdə rayonu Güloğlular kənd ümumi orta məktəbinin informatika müəllimi, təhsil meneceri:* - STEAM haqqında ilk dəfə təhsil menecerlərinin Qubadakı təlimində layihənin koordinatoru İqrar Nəzərov məlumat vermişdi. Bu layihədə özümü gördüm. Daha sonra STEAM təlimini öyrənmək üçün azərbaycanlı müəllimlərin İsrailə göndəriləcəyini eşitdim. Bu şansı qaçıra bilməzdim və müsahibə mərhələsində iştirak etdim. 50 nəfər uğur qazandı və onlardan biri də mən oldum. STEAM elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat elmlərinin inteqrasiyasıdır. STEAM dərsləri praktik məşğələlər əsasında keçilir və ən əsası real həyatdakı problemləri həll etməyi öyrədir. Yəni, şagirdi həyata hazırlayır. Buna görə də STEAM "Həyatın hər bir anında" deməkdir.

İsrailin "ORT İSRAİL" məktəblər şəbəkəsində bizə yeni metodologiyalar, layihə əsaslı öyrənmə, mobil öyrənmə, mühəndisliyin dizayn prosesi, nanotexnologiya, beyin elmləri, 3D printer, Tinkercad Microbit, Biomimicry, refleksiya və digər öyrənmə vasitələri öyrədildi. Həmçinin Peres İnnovasiya Mərkəzinə, STEAM tətbiq olunan məktəblərə, "Kfar-Galim", ORT Kiryat Motzkin, ORT Achva Gilboa, Tel-Əviv elm muzeyinə turlar təşkil edildi.

İşlədiyim Güloğlular kənd ümumi orta məktəbində şagirdlərə STEAM təlim formatında dərslər keçdim. Bu, həm sevindirici, həm də məsuliyyətli işdir. Yeni təlim forması şagirdlərin marağını daha çox cəlb edirdi. Növbəti həftə dərsə gələndə şagirdlərimin "Müəllim, STEAM dərsi keçək" demələri buna sübutdur. Düşünürəm ki, STEAM dərsləri təkcə yuxarı siniflərdə deyil, həmçinin aşağı siniflərdə də tətbiq olunmalıdır. Bizə göstərilən dəstəyə görə Təhsil Nazirliyinə, layihə rəhbərimiz İqrar Nəzərova, Hafiz Tofidiyə və əziyyəti keçən hər kəsə təşəkkür edirəm. STEAM ailəsinin üzvü olmaq çox qürurverici hissdir.

### "İsrailli pedaqoqlar bizi müxtəlif üsullarla təəccübləndirdilər"

*Gültəkin Abuşova, Bakıdakı Zakir Yusifov adına 194 nömrəli tam orta məktəbin riyaziyyat-informatika müəllimi:* - Ölkəmizdə təhsilin inkişafı sahəsində həyata keçirilən uğurlu layihələrdən biri STEAM layihəsidir ki, cari tədris ilindən Təhsil Nazirliyinin dəstəyi ilə 60-a yaxın məktəbdə tədrisinə başlanıb. Avqust ayında Təhsil Nazirliyinin Təlim Texnologiyalar Mərkəzində 125 nəfər müəllimin iştirakı ilə başlayan təlimlər uğurla başa çatdıqdan sonra bu təlimlərin daha da təkmilləşdirilməsi üçün nəinki paytaxt məktəblərində, həm də regionlarda çalışan 50 müəllimin cəlb edildiyi STEAM təlimləri İsrailin ORT məktəblər şəbəkəsinin dəstəyi ilə İsraildə davam etdirilib. Çox peşəkar pedaqoji heyətin iştirak etdiyi təlimlər olduqca maraqlı idi. "Bu təlimlər bizə nə verdi" sualına verəcək bir çox cavablar mövcuddur. Belə ki, kurikulum prinsipləri əsasında aktiv dərslərin keçilməsi, metodologiyaların, STEAM müəllimlərinin digər fənn müəllimləri ilə əməkdaşlığının vacibliyi, layihəəsaslı öyrənmə, 3D printerlər və onların yaratdığı möcüzələr, şagirdlərin XXI əsrin tələblərinə uyğun yetişdirilməsi və s. ilə tanış olduq.

Ən maraqlı və diqqətimizi cəlb edən bölmə isə smartfonlar və onların təhsildə tətbiqi oldu. XXI əsrin texnologiyalar əsri olduğunu nəzərə alsaq, istifadə edilən smartfonlar tədrisin maraqlı olmasına xidmət edir. Ən zəif şagird belə, bu metodologiyalarla keçilən dərsdə aktiv olur. Dərsin sonunda keçilən refleksiya hissəsi hər birimizin daha çox marağına səbəb oldu. Hər dəfə refleksiyanın dərsdə böyük önəm daşıdığını vurğulayan israilli pedaqoqlar bizi müxtəlif üsullarla təəccübləndirdilər. Müəllimlərimizin innovativliyi, yaradıcı olmaları onların da diqqətindən yayınmadı. Bir sözlə, 50 müəllimin İsraildə gördüyü, öyrəndiyi bilik və bacarıqlar Azərbaycan təhsilinə yeni nəfəs gətirdi. Hər birimiz nəinki öz dərslərimizi, hətta çalışdığımız məktəblərin müəllimlərinin də bu metodologiyalardan istifadə edərək dərslərini keçməsində yaxından yardımçı oluruq. Yaradılan şəraitə görə dövlətimizə, Təhsil Nazirliyinə, STEAM - Azərbaycan layihəsinin rəhbərliyinə dərin təşəkkürümü bildirirəm. Zənnimcə, bir müəllim üçün öz xalqının övladlarına öyrəndiklərini öyrətməkdən gözəl heç nə yoxdur.

### "STEAM haqqında daha geniş məlumat aldım"

*Rəhimə Əşrəfova, Ə.Quliyev adına 121 nömrəli tam orta məktəbin fizika müəllimi:* - Bildiyiniz kimi, STEAM elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat sahələrinin inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulmuş bir layihədir. Bu layihə ilə bağlı 17 noyabr- 10 dekabr tarixlərində İsraildə keçirilən təlimlərdə iştirak etdim. Bu təlimin iştirakçısı olduğum üçün özümü çox şanslı hesab edirəm. Çünki təlim müddəti ərzində bir çox yeni metodologiyalarla tanış oldum, microbit, biomimikriya, nanotexnologiya, neuroscience modulları istiqamətində, 3D printerlərin iş prinsipləri haqqında ətraflı məlumat və biliklər əldə etdim, layihələr üzərində işləməyi öyrəndim. İsraildə olduğumuz müddət ərzində STEAM haqqında daha geniş məlumat almaq məqsədi ilə müxtəlif tədris müəssisələrinə - məktəb və kolleclərə səfərlərimiz oldu. Eyni zamanda Peres İnnovasiyalar Mərkəzində ən son texnologiyalarla tanış olmaq imkanı qazandıq. Bütün bunlarla yanaşı, təlimlər zamanı mənim üçün çox dəyərli olan bir çox insan tanıdım. Onların arasında öz biliklərini bizimlə həvəslə bölüşən təlimçilər, iştirakçılar və təlimlərin yüksək səviyyədə keçirilməsini təmin edən təşkilatçılar var idi.

Layihədə iştirakıma görə hamıya öz təşəkkürümü bildirirəm. Bir müəllim kimi gələcəkdə bu layihə üçün əlimdən gələni etməyə hazıram.

## ADNSU - 100

# Beynəlxalq elmi-texniki konfransa hazırlıq

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) dövlət qurumları və şirkət nümayəndələrinin iştirakı ilə işçi görüş keçirilib.

İşçi formatda universitetin 100 illik yubileyinə həsr olunan "Kimya mühəndisliyinin aktual problemləri" mövzusunda Beynəlxalq elmi-texniki konfransa hazırlıq məsələləri müzakirə edilib.

Tədbirdə ADNSU-nun üzvi maddələr və yüksək molekullu birləşmələrin texnologiyası kafedrasının müdiri, professor Fariz Əmirov bildirib ki, konfransın əsas məqsədi yerli və xarici elm, təhsil, sənaye nümayəndələrinin ünsiyyət qurması, təcrübə mübadiləsinin aparılması, yeni əlaqələrin müəyyən edilməsi və köhnə əlaqələrin möhkəmləndirilməsi, həmçinin kimya mühəndisliyinin inkişafının müasir mərhələsində ən perspektivli elmi istiqamətlərin işıqlandırılmasıdır.

Konfransın elmi proqramında üç dildə (Azərbaycan, rus və ingilis) plenar, şifahi və stend məruzələrinin dinlənilməsi planlaşdırılır. F. Əmirov konfransda yerli təşkilat və dövlət qurumlarının nümayəndələri, dünyanın 50-yə yaxın ölkəsindən çoxsaylı alimlərin də iştirak edəcəyini çatdırıb. Onun sözlərinə görə, işçi görüşün keçirilməsində də əsas məqsəd konfransa hazırlığı yüksək səviyyədə keçirmək, onun elm tutumlu, əhəmiyyətli təşkilini təmin etməkdir.

Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rafiq Camalov, KTF-nin dekanı, professor Sevinc Məmmədxanova və digər iştirakçılar da çıxış edərək konfransın əhəmiyyətindən danışıb, belə bir tədbirin ADNSU-nun 100 illiyi ərəfəsində keçirilməsinin önəmli olduğunu vurğulayıblar.

# UNEC-də distant formada tədris

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) distant təhsillə bağlı pilot layihə həyata keçirilir.

Artıq humanitar fənlərin tədrisi alternativ kimi distant formada da təşkil olunub.

UNEC Externdə ilk olaraq Maliyyə və mühasibat fakültəsində 2019/2020-ci tədris ilinin yaz semestrində "Multikulturalizmə giriş" və "Sosiologiya" fənlərinin distant formada tədrisinə başlanılıb. 1-ci kursda əyani təhsil alan tələbələrdən könüllülük prinsipi əsasında 24 tələbə seçilərək, distant formada təhsilə cəlb olunub.

Həmin fənləri distant formada dinləmək istəyən tələbələrin adları EDUMAN sistemində distant formada tədris üçün yaradılan fənn üzrə qruplara daxil edilib. Müəllimlər studiyalardan onlayn apardıqları dərslərdə öncədən EDUMAN sisteminə yüklənən tədris materiallarından istifadə edirlər. Tələbənin davamiyyəti və qiymətləndirilməsi isə müvafiq qaydalara uyğun elektron jurnalda aparılır.

Sonda imtahanlar adi qaydada, tələbələrin fiziki iştirakı ilə təşkil olunacaq. Distant qrupun imtahan nəticələri digər qrupların imtahan nəticələri ilə müqayisə olunacaq və nəticələr təhlil ediləcək.

Qeyd edək ki, ən müasir texniki avadanlıqlarla təchiz olunan "UNEC Extern"də 6 tədris studiyası var. UNEC-in "Elektron universitet" sistemi və UNEC Externdə yaradılan müasir standartlara uyğun infrastruktur distant təhsilin tam əyanidəki kimi aparılmasına imkan verir. Burada auditoriyaları studiyalar əvəz edir ki, onların tərtibatı və təchizatı bir çox ABŞ və Avropa universitetlərinin analoji mərkəzlərindən daha üstün təşkil edilib. Onlayn tədris aparılan studiyalarda elektron kürsü, xüsusi sensor lövhə, monitor, HD kamera və səs avadanlıqları quraşdırılıb.

# BMU tələbələrinin pedaqoji və istehsalat təcrübəsi

Bakı Mühəndislik Universitetinin (BMU) tələbələri üçün 2019/2020-ci tədris ili üzrə pedaqoji və istehsalat təcrübələrinin həyata keçirilməsinə başlanılıb. İqtisadiyyat və idarəetmə, mühəndislik və pedaqoji fakültəsinin tərcümə və psixologiya ixtisasları üzrə istehsalat təcrübəsinə göndərilən bakalavr tələbələrin ümumi sayı 516 nəfər, pedaqoji təcrübəyə göndərilənlərin sayı isə 303 nəfər təşkil edir. Ümumilikdə 819 tələbə təcrübə proqramına cəlb olunub.

Tələbələr istehsalat təcrübəsini bir sıra dövlət və qeyri-dövlət qurumlarında keçəcəklər. Maliyyə ixtisasının bir tələbəsi isə Almaniyanın Koblenz Universitetinə təcrübəyə göndəriləcək.

Tələbələr Azərbaycan Britaniya kolleci, Landau məktəbi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi, o cümlədən bir sıra lisey və orta məktəblərdə pedaqoji təcrübədə olacaqlar. 14 həftədən ibarət pedaqoji və istehsalat təcrübəsi 25 may tarixinə kimi davam edəcək. Tələbələrə universitetin təcrübəli müəllimlərindən rəhbərlər təyin olunub.

Bununla yanaşı, BMU-nun beynəlxalq münasibətlər və diplomatiya, kimya mühəndisliyi, maşın mühəndisliyi, beynəlxalq iqtisadi münasibətlər, kompüter mühəndisliyi, idarəetmədə informasiya sistemləri ixtisasları üzrə II kursda təhsil alan 38 magistrant üçün yaz semestrində 17 fevral-13 mart tarixlərini əhatə edən elmi-tədqiqat, 16 mart-10 aprel 2020-ci il tarixlərində isə elmi-pedaqoji təcrübələrin təşkil olunması nəzərdə tutulub. Magistr tələbələr təcrübələrini universitetin müvafiq kafedralarında və elmi-tədqiqat qurumlarında keçəcəklər.